*Kitab Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının 2023-cü il 03 mart tarixli
02 nömrəli iclasının qərarına əsasən çap olunmuşdur.*

# HEYDƏR ƏLİYEV
# 100
# FAKTIN TARİXİ

Bakı – 2023

ISBN 978-9952-33-053-3


## İDEYA MÜƏLLİFLƏRİ VƏ MƏSLƏHƏTÇİLƏR:

**ELNUR MARAT oğlu ALLAHVERDİYEV**
*Milli Məclisin deputatı*

**SOLTAN TEYMUR oğlu MƏMMƏDOV**
*Milli Məclisin deputatı*

ELMİ REDAKTOR:

Yəhya Məmməd oğlu Babanlı
*Tarix elmləri üzrə fəlsəfə doktoru*

TƏRTİBÇİLƏR:

Elşad Mircavad oğlu Miraləm

Rüstəm Feruz oğlu Qaraxanlı


**HEYDƏR ƏLİYEV. 100 FAKTIN TARİXİ. Bakı: "Azərbaycan Nəşriyyatı" MMC, 2023, – 112 səhifə + fotobloklar.**


Kitabda Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan Respublikasının qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan tarixindəki roluna dair 100 mühüm hadisə və tarixi fakt yer almışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi birinci və ikinci dövrlərdə, habelə Sovet İttifaqında məsul vəzifədə və Naxçıvanda fəaliyyətdə olduğu illərdə Azərbaycan xalqının böyük dəstəyinə arxalanaraq, gərgin mübarizə nəticəsində dövlət müstəqilliyinin əbədi, daim, dönməz olması üçün müstəsna xidmətlər göstərmişdir.

Kitabda Ümummilli Liderin dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən 100 ən əlamətdar olanı seçilmiş, onun müsahibələrinə, çıxışlarına və bəyanatlarına, eləcə də səfərlərinə və müxtəlif görüşlərinə toxunulmuşdur.

Kitab "Heydər Əliyev İli" çərçivəsində ərsəyə gətirilmiş və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.


**© "Azərbaycan Nəşriyyatı" MMC, 2023.**

**REDAKSİYA HEYƏTİ:**

**URXAN KAZIM oğlu ƏLƏKBƏROV**
*Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

**ARİF MƏMMƏD oğlu HƏŞİMOV**
*Texnika elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü*

**ZİYAFƏT ZİYA qızı HƏBİBOVA**
*Siyasi elmlər doktoru, professor*

**MƏRYƏM HƏSƏN qızı SEYİDBƏYLİ**
*Tarix elmləri doktoru, professor*

**ƏDALƏT QASIM oğlu QASIMOV**
*Tarix elmləri doktoru, professor*

**FƏXRƏDDİN SADİQ oğlu MƏMMƏDOV**
*Texnika elmləri doktoru, professor,*

**FƏRHAD RAFİQ oğlu CABBAROV**
*Tarix elmləri doktoru, dosent*

**AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

# SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə

çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il № 34947*

*I FƏSİL*

# HEYDƏR ƏLİYEVİN SOVET AZƏRBAYCANINA RƏHBƏRLİYİ DÖVRÜ

*(1969–1982)*

**1** ***1969-cu il 14 iyul***

## Azərbaycan tarixində yeni mərhələ

Azərbaycan SSR Dövlət Təhlükəsizlik Xidmətinin sədri Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə seçilib. Bu, Heydər Əliyevin karyerasında yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, Azərbaycanın tarixində də möhtəşəm bir səhifənin açılışı idi.

Məhz onun rəhbərliyi altında respublikada qısa müddətdə böyük irəliləyişlər əldə olunub. Ölkə həyatının bütün sahələrində – iqtisadi, humanitar, sosial-mədəni sferada yüksək nailiyyətlər qazanılıb.

Ulu Öndərin respublikaya rəhbər seçilməsindən sonra adambaşına düşən ümumdaxili məhsul istehsalının 2,5, sənaye istehsalının 3, kənd təsərrüfatı məhsullarının 2 dəfə artımına nail olunub. 1969-cu ildən 1982-ci ilə qədər ölkədə 250 zavod, fabrik və sex tikilərək, 2 milyondan artıq vətəndaşın mənzil təminatı həll olunub. Pambıq istehsalı 333,6 min tondan 1982-ci ildə 1 milyon tona qədər yüksəlib. Üzüm istehsalı 1980-ci ildə 1,5 milyon tona çatmışdı ki, bu da 1969-cu ilin göstəricisindən 5-6 dəfə yüksək idi.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi sayəsində ittifaq ölkələrindən fərqli olaraq, SSRİ məkanında iki respublika – Rusiya və Azərbaycan dotasiya olmadan yaşayırdı. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

Azərbaycanın şəhər və kəndlərində 700-ə qədər məktəb binası istifadəyə verilib, ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 min nəfərə çatdırılıb. 1969-cu il üçün Azərbaycandan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılırdısa, 80-ci illərin əvvəllərində bu göstərici 1000-1400 nəfər təşkil edirdi.

Azərbaycanın paytaxtında, digər şəhər və rayonlarında tanınmış mədəniyyət, ədəbiyyat, elm xadimlərinin – Nəriman Nərimanovun, Qəzənfər Musabəyovun, İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin və digərlərinin abidələri ucaldılıb. Çoxlu sayda tarix-diyarşünaslıq muzeyləri açılıb, Səməd Vurğunun, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün ev-muzeyləri yaradılıb.

Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Ümummilli Lider həmin dövrü belə xarakterizə edirdi: *1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur.*

**2** ***1969-cu il 1 noyabr***

## Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) 50 illik yubiley iclasında ana dilində nitqi

1969-cu il 1 noyabr tarixində Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli toplantıda Azərbaycan dilində çıxış edən Heydər Əliyev bu addımı ilə respublikanın elmi, ədəbi ictimaiyyətinin, bütöv ziyalı ordusunun diqqətini doğma ana dilinə yönəltdi.

Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı:

*"Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".*

**3** ***1970-ci il 13 iyul***

## "Xəzərdənizneft" İstehsalat Birliyinin yaradılması

1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi (İB) yaradıldı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq, Xəzərin bütün sektorlarında (həmin ildən Xəzər sektorlara bölündü) geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını onlara həvalə edib.

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 metrə qədər olan sahələrində işləməyə imkan verirdi. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 metrədək dərinlikdəki perspektivli sahələrdə, demək olar ki, bütün neft-qaz yataqları aşkar olunmuşdu. Dənizdə neft və qazın hasilatının artırılması daha böyük dərinliklərdə yatan neft və qaz ehtiyatları ilə bağlı idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində 70–80-ci illərdə Azərbaycana 75 növdə 400-dən çox ağır yükqaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirilib. Xəzərdə 2500 ton gücündə "Azərbaycan" kran gəmisi işə başlayıb. Dənizin 70 metr dərinliyində olan sahələrində geoloji-kəşfiyyat işləri aparmaq üçün "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyində-

ki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaranıb.

Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yatağı kəşf edilib, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırılıb. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. tona (şərti yanacaq) çatdırılıb. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 metr dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olunub.

Məhz Ulu Öndərin bilavasitə iştirakı ilə dənizdə perspektivli neft yataqlarının kəşfiyyat işləri xeyli genişlənərək sürətlənib. Xəzərin Azərbaycan sektorunda yeni dəniz neft-qaz kondensat yataqları – "Bahar" (1968), "Səngəçal-Duvannı-dəniz" (1969), "Bulla-dəniz" (1975-ci il) yataqlarının açılışı və istismara başlanması reallaşdırılıb. 1970-ci ildə dəniz nefti hasilatı maksimum həddə yüksələrək 12,9 milyon tona çatıb.

**4** ***1970-ci il 18 avqust***

## Kür sutəmizləyici qurğularının tikintisi

Ötən əsrin 60-cı illərində Bakı şəhərində yeni yaşayış massivlərinin və mikrorayonların salınması, ətraf qəsəbə və kəndlərin böyüməsi nəticəsində Abşeron yarımadasında içməli suya tələbat kəskin artmışdı. Xaçmazdan çəkilmiş iki su kəməri ilə gətirilən və Ceyranbatan sutəmizləyici qurğular kompleksində emal olunan su tələbatı ödəmirdi.

İstehlakçıların su təchizatında dayanıqlığı təmin etmək üçün Azərbaycan SSR Nazirlər Sovetinin qərarı əsasında Kür çayının sahilində sutəmizləyici qurğular kompleksinin inşasına və oradan

Bakıya kəmərlərin çəkilməsinə başlanıldı. 1968-ci ildə layihənin icrasına start verilsə də tikinti işləri ləng aparılırdı. 1969-cu ildə ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonra xalq tikintisinə çevrilən layihə qısa müddətdə tamamlandı. Kür su kəmərləri sisteminin birinci növbəsi mərhələlərlə 1970–1971-ci illərdə istismara verilıb. Təmizlənən suyu Bakı sakinlərinə çatdırmaq üçün Hacıqabul rayonunun Kiçik Talış kəndi yaxınlığında yerləşən kompleksdən 2 ədəd magistral kəmər çəkilib. Birinci mərhələdə kəmərlərlə paytaxta saniyədə 3,2 kubmetr içməli su ötürülsə də artan tələbatı ödəmirdi.

Abşeronun içməli su təchizatını yaxşılaşdırmaq üçün 1980-ci illərdə Kür su kəmərləri sisteminin ikinci növbəsi tikilib. 3 mərhələdə (1984, 1986 və 1988-ci illərdə) Bakıya daha 3 magistral su kəməri çəkilib. Kür su kəmərləri sisteminin ikinci növbəsinin istismara verilməsi ilə yeni salınmış Günəşli və Əhmədli yaşayış massivlərində müşahidə olunan su qıtlığı aradan qaldırılıb.

**5** ***1970-ci il 30 sentyabr***

## L.İ.Brejnevin Azərbaycana səfəri

Sovet İttifaqı KP MK-nın Baş katibi L.İ.Brejnev Azərbaycan SSR-in və Azərbaycan KP-nin 50 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Bakıya gəlib. L.Brejnev ölkəyə rəhbərlik etdiyi illərdə (1964-1982) Azərbaycana 3 dəfə – 1970-ci il sentyabrın 30-da, 1978-ci il sentyabrın 18-25-də və 1982-ci ilin sentyabrın 24-27-də səfər edib.

Həmin səfərlər SSRİ rəhbərinin respublikaya xüsusi münasibətinin göstəricisi hesab edilirdi. Brejnevin Heydər Əliyevin qeyri-adi istedadına və praqmatikliyinə rəğbət bəsləməsi, bu kontekstdə sıx əlaqələr Heydər Əliyevə Azərbaycana qarşı ögey münasibətin qarşısını almağa, infrastruktur layihələrini reallaşdırmağa imkan verirdi.

6 *1971-ci il 19 yanvar*

## Gəncə şəhərində çini qablar zavodunun açılışı

Gəncədə ilk çini qablar zavodu 1970-ci illərin əvvəllərində işə düşüb. 2500 nəfərə yaxın işçinin çalışdığı Gəncə çini qablar zavodu 25 ildən çox müddətdə fəaliyyət göstərib. Zavodun Şərq dəstləri, çay, şərbət, gülab dəsti, çaydan, kasa, piyalə kimi istehsal məhsulları keçmiş ittifaq ölkələrinə ixrac olunub.

Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın keçid dövründə müəssisə rəqabətə davam gətirə bilməyib və fəaliyyətini tamamilə dayandırmaq məcburiyyətində qalıb.

7 *1971-ci il 19 aprel*

## Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi təmayüllü məktəbin açılışı

Ümummilli lider Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi təmayüllü məktəb hərb sahəsində milli kadrların hazırlanmasında əlahiddə hadisə idi. Məhz Ulu Öndərin müdrikliyi sayəsində SSRİ hökumətinin bu məktəbin yaradılmasına etirazı dəf edilib. Məktəbə "qırmızı terror"un qurbanı olan Cəmşid xan Naxçıvanskinin adının verilməsi də tarixi addım idi.

Ulu Öndər azərbaycanlı gəncləri ali hərbi məktəblərə hazırlamaq məqsədilə respublikada hərbi təyinatlı orta internat məktəbini yaratmaq təşəbbüsü ilə çıxış edib və tez bir zamanda bu istiqamətdə işlərin görülməsi üçün maarif nazirinə tapşırıqlar da verib. Təşəbbüsün Maarif Nazirliyindən gəlməsi Moskvanın buna

müdaxilə etməməsi üçün edilən müdrik gediş idi. Ulu Öndərin tapşırığı əsasında Azərbaycan milli diviziyasının ilk komandiri olmuş general Cəmşid Naxçıvanskinin anadan olmasının 75 illiyi ilə əlaqədar Respublika Hərbi Komissarlığı tərəfindən Mərkəzi Komitəyə müraciət edilib. Bu müraciətə əsasən Azərbaycan Kommunist Partiyası Mərkəzi Bürosu Bakı şəhəri, Zığ qəsəbəsi 2 nömrəli 8 illik internat məktəbinin bazasında hərbi təyinatlı orta internat məktəbinin yaradılması və bu təhsil ocağına görkəmli hərbi xadim general Cəmşid Naxçıvanskinin adının verilməsi barədə qərar qəbul edib.

Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə ön cəbhədə oldular. 24 noyabr 1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb. C.Naxçıvanski adına Hərbi Liseyin məzunlarından 1000 nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunub, 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülüb. Heydər Əliyev adına Hərbi Liseyin (Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı əsasında yaradılıb) məzunlarından isə 100 nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif edilib.

27 sentyabr 2020-ci ildə başlanan II Qarabağ müharibəsində gedən döyüşlərə C.Naxçıvanski adına Hərbi Liseyin zabit-gizir heyəti də qatılıb və onlardan 1 nəfər zabit şəhid olub, 3 nəfər hərbi qulluqçu yaralanıb. Hərbi liseyin 40 nəfərdən çox hərbi qulluqçusu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunub.

**8** ***1971-ci il 3 iyun***

## Azərbaycan yazıçılarının V qurultayında iştirakı

Azərbaycan yazıçılarının V qurultayı Azərbaycan ədəbiyyatı tarixində xüsusi hadisələrdən biri kimi yadda qalıb. Ulu öndər Heydər Əliyev 1971-ci ildən başlayaraq Azərbaycan yazıçılarının bütün ali məclislərində iştirak edib. Proqram xarakterli geniş və dolğun nitqlərində təşkilatın qarşısında dayanan vəzifələr, xalqın və dövlətin taleyində ədəbiyyatın yeri və rolu barəsində fikirlər söyləyib, yazıçıları respublikamızın həyatında fəal mövqe tutmağa çağırıb.

V qurultaydakı nitqində söylədiyi fikirlər bunu bir daha təsdiq edir:

*"Biz istəyirik ki, yazıçılarımızın yaradıcılığı respublikanın ictimai-siyasi həyatı ilə sıx bağlı olsun, onlar həyatdan ayrılmasınlar, kəskin problemlərdən və məsələlərdən kənara çəkilməsinlər, əksinə, həmişə hadisələrin qaynağında olsunlar... Biz arzu edirik ki, yazıçılar öz yaratdıqları əsərlərə zamanın və günün tələbləri zirvəsindən qiymət versinlər..."*

**9** ***1971-ci il 27 iyul***

## Ağstafaçay su anbarının inşası

Ağstafaçay su anbarı ulu öndər Heydər Əliyevin 1971-ci ildə açılışını etdiyi strateji əhəmiyyətli obyektlərdən biridir. Anbar mənbəyini Qərbi Azərbaycandan götürmüş Ağstafaçay üzərində qurulub.

Ağstafaçay su anbarı Azərbaycanın qərb istiqamətində 4 rayonun 57 min hektar ərazisini suvarma suyu ilə təmin edir. Mənbəyi-

ni 104 kilometr məsafədə dağlardan götürən Ağstafaçay 5 qoldan toplanaraq anbara daxil olur.

Ağstafaçay Hidroqovşağı kanallar ilə birlikdə kompleks su təsərrüfatı sayılmaqla, regionun ən böyük hidrotexniki qurğusu hesab olunur.

**10** ***1972-ci il 6 iyun***

## Nəriman Nərimanovun heykəlinin açılışı

Abidənin heykəltaraşı Azərbaycan SSR Xalq rəssamı Cəlal Qaryağdı, memarları T.Abdullayev, Y.Qədimovdur. Mərhum heykəltaraş Cəlal Qaryağdının oğlu Cəlil Qaryağdının verdiyi məlumata görə, işin əsası 1959-cu ildə qoyulub. Heykəlin 2 metrlik modeli 1966-cı ildə tam başa çatıb: *"Müəyyən səbəblərə görə bu iş dayanır. Nərimanova millətçi adı verilmişdi. Bu işdə Şaumyanın oğlunun əli var idi. Beləliklə də məsələ dayanır. Atam danışırdı ki, Əziz Əliyevin qəbirüstü proyekti hazırlananda Heydər Əliyev emalatxanaya gəlir. Burada həmin heykəli görür. Atamdan maraqlanır ki, bu nə məsələdi. O da vəziyyət barədə danışır.*

*Qısası, Moskva icazə vermir. Heydər Əliyev bir söz demir. Astaca başını tərpədir. Günlərin bir günündə, 1969-cu ildə bu işə yenidən start verilir. Əliş Ləmbəranski gəlib atamı təbrik edir ki, "Nərimanova icazə verilib..."*

# 11 *1972-ci il 28 avqust*

## Sovet İttifaqının ali məktəblərinə qəbul olmuş azərbaycanlı gənclərlə görüş

Ümummilli lider Heydər Əliyevin 1969–1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə yüzlərlə yeni tədris ocağı, gənclik mərkəzləri, hərbi məktəblər açılıb, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alıb, vacib ixtisaslara yiyələnib.

Ümummilli Lider hər il avqust ayının axırlarında vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə görüş keçirir, dərin məzmunlu çıxışı ilə öz tövsiyələrini verirdi. 1972-ci ildə avqustun 28-də Sovet İttifaqının müxtəlif şəhərlərindəki ali təhsil ocaqlarına qəbul olmuş azərbaycanlı gənclər qrupu ilə ilk görüşünü keçirib.

Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılıb.

21 may 1998-ci ildə Ulu Öndər respublikamızdan kənarda təhsil almış mütəxəssislərlə görüş zamanı həmin dövrü belə xatırlayırdı: *“1970–1980-ci illərdə Azərbaycandan kənarda təhsil almağa göndərdiyim insanlar mənim doğma övladlarımdır. Bəlkə də, Siz bilmirsiniz ki, mən bu işi təşkil edənə qədər nə əziyyət çəkmişəm ....*

*... Bakıdan Moskvaya gedəndə buradakı mənzilimi təhvil verdim. Çoxlu kitablarım var idi, onları aparmaq mümkün deyildi. Göstəriş verdim ki, mənim üçün ən əsas olan kitabları, sənədləri seçsinlər. Mən hər il respublikadan kənarda oxumağa göndərdiyim tələbələrin cildlənmiş siyahılarını özümlə Moskvaya apardım”.*

**12** *1970–76-cı illər*

## Bakı Metropoliteninin yeni stansiyalarının açılışı

Tikintisi 1932-ci ildə Bakının baş planında nəzərdə tutulsa da, II Dünya müharibəsi səbəbindən təxirə salınan və yalnız 1948-ci ildə inşasına başlanılan Bakı Metropoliteni böyük qısqanclıqlara elə həmin dövrdən tuş gəlmişdi. 1953-cü ildə maliyyə bəhanəsi ilə metronun tikintisi dayandırılıb.

Həmin illərdə dövlət təhlükəsizliyi orqanında çalışan Heydər Əliyev SSRİ-nin strateji əhəmiyyətli şəhərləri sırasına daxil edilən Bakıda metro tikintisinin xüsusi orqanların nəzarəti ilə həyata keçirilməsi üçün hazırlıq sənədlərinin üzərində böyük zəhmət çəkib. 1960-cı ildə tikinti işlərinin bərpasında məhz onun alt bazasını hazırladığı sənədlərin xüsusi rolu olub.

1967-ci il noyabrın 6-da 9,2 kilometrlik yeraltı xətti boyunca yerləşən beş stansiyası ilə sərnişindaşıma prosesinə qoşulan metropolitenin Bakının əvəzsiz nəqliyyat vasitəsinə çevrilməsində Heydər Əliyev dühasının əhəmiyyətli rolu olub.

1970-ci ilin 5 mayında “Ulduz”, 1972-ci il noyabrın 6-da 3 stansiya – “Məşədi Əzizbəyov” (indiki “Koroğlu”), “Avrora” (indiki “Qara Qarayev”), “Neftçilər” stansiyaları, 1976-cı ilin 31 dekabrında “Nizami” metrostansiyası istismara verilib.

**13** *1972-ci il 11 dekabr*

## Heydər Əliyev Sarayının inşası

1960-cı illərdə iki dəfə Bakıda geniş səhnəli kinopanoram binasının tikilməsi qərara alınsa da, nədənsə, inşaat işləri bir neçə dəfə

yarımçıq dayandırılıb. 1960-cı ildə Bakıda genişekranlı kinoteatr tikilməsi qərara alındı. Tikintiyə 1962-ci ildə başlanılıb. Bina dörd küçənin kəsişməsində layihələndirilmişdi. İlkin işlər görüldü və az müddət sonra iş dayandırılıb.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçilməsindən sonra iş yenidən başlanıldı. Ümummilli Lider tikinti işlərinə rəhbərliyi tanınmış inşaat mühəndisi Əliş Ləmbəranskiyə tapşırıb. Beləliklə, tikintisi illərlə ləngiyən binada inşaat işləri sürətləndirilib. Ulu Öndərin qayğısı nəticəsində tikinti işləri 2 ilə başa çatıb. Yüksək peşəkarlıqla və növbəli iş sistemi ilə görülən işlər bəhrəsini verib. 11 dekabr 1972-ci ildə bina Lenin adına saray kimi öz qapılarını tamaşaçıların üzünə açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 mart 2004-cü il tarixli Sərəncamı ilə Heydər Əliyev Sarayı adlandırılıb.

**14** ***1973-cü il 9 may***

## Mehdi Hüseynzadənin abidəsinin açılışı

1973-cü il mayın 9-da ulu öndər Heydər Əliyevin iştirakı ilə Bakıda Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin açılışı olub. Alman faşistləri ilə mübarizədə həlak olmuş Sovet İttifaqı Qəhrəmanı, partizan Mehdi Hüseynzadənin abidəsi heykəltaraş Fuad Əbdürrəhmanovun ən məşhur əsərlərindən biridir.

Mehdi Hüseynzadəyə layiq olduğu Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsində, ümumiyyətlə, Mixaylonun adının əbədiləşdirilməsində, onun göstərdiyi şücaət və rəşadətin təbliğində məhz Ümummilli Liderin müstəsna xidmətləri olub. Dövlət Təhlükəsizliyi Xidmətinin arxiv fondlarında qorunub saxlanılan nadir sənədlərin tədqiqi göstərir ki, vaxtilə Azərbaycan SSR DTK-da yaradılmış və kapitan Heydər Əliyevin rəhbərlik etdiyi xüsusi əməliyyat-təhqiqat qrupunun böyük əziyyət və peşəkarlıqla topladığı materiallar, sorğular, rəylər və

şahid ifadələri əsasında 1957-ci ilin yanvarında Mehdi Hüseynzadənin döyüş və qəhrəmanlıq fəaliyyətinə dair müfəssəl və təsirli arayış hazırlanıb. Azərbaycan SSR DTK-sı da həmin sənədi baxılması və Moskvaya təqdim olunması üçün Azərbaycan KP MK-ya göndərib.

Bundan sonra Mehdi Hüseynzadənin qəhrəmanlıq salnaməsinin ictimailəşdirilməsində əvəzsiz xidmətləri olan Heydər Əliyevin uzun illər ağır zəhməti hesabına toplanılan materiallar əsasında tanınmış yazıçılar İmran Qasımov və Həsən Seyidbəyli "Uzaq sahillərdə" povestini yazıblar və onların hazırladıqları ssenari əsasında eyniadlı film çəkilib.

**15** ***1973-cü il 13-14 sentyabr***

## İmadəddin Nəsiminin 600 illik yubileyinin qeyd olunması

Ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi kimi 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olur. O, Hələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini bildirib. Lakin Nəsiminin qəbrini ziyarət etmək üçün bir müddət gözləmək lazım gəlib. Çünki yerli hakimiyyət orqanlarının nümayəndələri məzarı tapa bilmirdilər. Nəhayət, məzar tapılıb, səliqəyə salınıb və Heydər Əliyev məzarı ziyarət edib.

Ulu Öndər Bakıya döndükdən sonra Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK Bürosunun 1970-ci il 27 mart, 1971-ci il 24 mart, 29 aprel, 23 iyul tarixli iclaslarında müzakirə edilib. Bundan sonra Heydər Əliyevin Moskvaya, Sov. İKP MK-ya yazdığı məktub əsasında Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd olunması ilə bağlı qərar qəbul edilib. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilib.

Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və professor Araz Dadaşzadə Suriyaya ezam ediliblər. Nəsiminin məzarının və-

ziyyəti ilə tanış olublar və bərpası məsələsini qaldırıblar. Ulu öndər Heydər Əliyevin əməyi nəticəsində məzar bərpa edilib. 1973-cü ildə İmadəddin Nəsiminin 600 illiyi dövlət səviyyəsində qeyd olunub. Yubileyə dünyanın 29 ölkəsindən nümayəndələr gəliblər. YUNESKO-nun "Kuryer" jurnalında Nəsimi haqqında geniş məqalə dərc olunub, əsərləri ingilis, fransız və başqa dillərə tərcümə edilib. Nəsimi haqqında elmi əsərlər, monoqrafiyalar yazılıb. Həsən Seyidbəyli "Nəsimi" filmini çəkir, Fikrət Əmirov "Nəsimi dastanı" baletini başa çatdırıb, İsa Muğanna "Məhşər" romanını, Qabil "Nəsimi" poemasını yazıb.

1980-ci ilin 20 fevralında Bakıda Azərbaycan mütəfəkkiri Nəsiminin heykəlinin açılışı olur. Xalq yazıçısı Mirzə İbrahimov çıxışlarının birində bu barədə belə deyirdi: *"Mənim o zaman ürəyim titrədi, görəsən, Nəsiminin yubileyini batıracağıq, yoxsa keçirəcəyik. Lakin sevimli oğlumuz Heydər Əliyev yoldaş sinəsini qabağa verərək Nəsiminin heykəlini ucaltdı".*

**16** ***1973-cü il 9 oktyabr***

## Bakıda XXIV Beynəlxalq Astronavtika Konqresi

1973-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə keçmiş Sovet İttifaqında ilk dəfə Bakıda "Kosmik Tədqiqatlar: Elm və Texnologiyaya Təsir" adlı 24-cü Beynəlxalq Astronavtika Konqresi keçirilib.

Konqresin Bakıda təşkilinin bilavasitə nəticəsi olaraq, 1974-cü ildə Azərbaycanda kosmik tədqiqatlar sahəsində ilk tətbiq yönümlü qurum olan "Kaspi" Elm Mərkəzi və 1975-ci ildə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) Astrofizika kafedrası yaradılıb.

Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə 2023-cü ildə Azərbaycan yenidən ev sahibliyi edib.

17 *1975-ci il 25 dekabr*

## Bakı Məişət kondisionerləri zavodunun açılışı

Məişət kondisionerləri istehsal edən zavodun inşası dəfələrlə SSRİ Nazirlər Sovetində müzakirəyə çıxarılsa da, bu məsələ 1970-ci ilə qədər öz həllini tapmayıb. Nəhayət, 1970-ci ildə SSRİ-də məişət kondisionerləri zavodunun tikilməsi ilə bağlı məsələ reallaşmağa başlayıb. İlk müzakirələrdə zavodun Daşkənddə tikilməsi nəzərdə tutulub. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev kondisioner zavodunun Bakıda inşa edilməsi ilə bağlı Kremldə təklif irəli sürüb. Növbəti müzakirələrdə bu təklif qəbul edilib.

SSRİ Nazirlər Soveti zavodun tikintisinə 25 milyon dollar vəsait ayırıb. Bir neçə ay sonra SSRİ elektrotexnika naziri Aleksey Antonovun təşəbbüsü ilə zavodun Ukraynada, Zaporojye şəhərində tikilməsi ilə bağlı rəsmi qərar çıxarılıb. Bu qərarı Antonov belə əsaslandırıb ki, Azərbaycan layihənin icrasının öhdəsindən gələ bilməyəcək. Heydər Əliyevlə görüşdən sonra Baş katib Leonid Brejnev məsələyə müdaxilə edib. Zavodun Bakıda tikilməsinə qərar verilib.

Ümummilli lider Heydər Əliyev görüşlərinin birində həmin günləri belə xatırlayırdı:

*"O vaxt mərhum Brejnev məndən soruşdu ki, bilirsiniz, vaxt keçib, ancaq lazımdır ki, bu zavodun tikintisi 1975-ci ildə başa çatdırılsın, siz bunu təmin edə biləcəksinizmi? Bu söhbət 1973-cü ildə gedirdi. Mən ona dedim ki, Sovet İttifaqının heç bir yerində bu zavodu 1975-ci ildə tikib təhvil verə bilməyəcəklər. Ancaq biz verəcəyik və mən buna söz verirəm. Bundan sonra yenə də maneələr başlandı. Bu maneələr nədən ibarət idi? Avadanlıqları almaq üçün xarici ölkələrin firmaları ilə danışıqlar aparılırdı. O vaxt Amerikanın, Almaniyanın, İtaliyanın, Yaponiyanın firmaları ilə danışıqlar gedirdi. Biri 150 milyon dollar, biri 140 milyon dollar, biri 130 milyon dollar istəmişdi. Amma qəbul edilən qərarda cəmi 25 milyon dollar vəsait ayrılmışdı. Bu danışıqları aparanlar mənə dedilər*

*ki, bilirsiniz, 25 milyon dollar ayrılıb, amma bunu 120 milyon dollardan aşağı qiymətə almaq mümkün deyil. Ona görə də bu zavodu tikmək mümkün olmayacaq. Dedim ki, gedin, sübut edin, ölkənin rəhbərlərinə deyin ki, bu həcmdə valyuta çatmır, 120 milyon dollar lazımdır. Dedilər ki, biz bunu edə bilmərik. Çünki qəbul edilmiş qərarı dəyişdirmək olmaz. Bu vəzifə yenə də mənim üzərimə düşdü. Mən bunun üçün Moskvaya, mərhum Brejnevin yanına getdim. Ona dedim ki, sizin göstərişləriniz yerinə yetirilmir. Təəccüb etdi ki, nə üçün? Dedim, qərar çıxartdınız, göstəriş verdiniz, amma yerinə yetirmirlər. Səbəb də budur: 25 milyon dollar ayırmısınız, mənə deyirlər ki, 100 milyon dollar da lazımdır. Məndə isə bir dollar da yoxdur, bunu siz verməlisiniz. Ona görə də qərarı dəyişməlisiniz. Dəhşətə gəldi. Dedi, bəs, belə şey olarmı, biz bu məsələni həll etmişik. Onun göstərişi ilə bir günün içərisində, 1973-cü ildə avadanlıqları Yaponiyanın "Toşiba" firmasından almaq üçün valyuta ayrıldı. Bundan sonra işlər hərəkətə gəldi. Mən isə bir daha söz verdim ki, iki il içərisində, 1975-ci ilin dekabr ayında bu zavod tikilib başa çatacaq..."*

**18** ***1976-cı il 28 dekabr***

## Yuxarı Xanbulançay su anbarının tikintisi

Lənkəranda Yuxarı Xanbulançay Su Təsərrüfatı Kompleksi ulu öndər Heydər Əliyevin bilavasitə xeyir-duası ilə inşa olunub. Kompleksin tikintisi 1976-cı ilin dekabrında başa çatdırılıb.

Lənkəran rayonunda yerləşən Xanbulançay su anbarı çay əkinlərinin suvarma suyuna tələbatının ödənilməsi məqsədi ilə tikilib. Xanbulançay su anbarının ümumi su tutumu 52 mln. $m^3$-dir. Bəndin hündürlüyü 64 m, üstdən uzunluğu isə 550 m-dir.

Su anbarının istifadəyə verilməsi ilə Azərbaycanın subtropik zonasında 22 min hektar torpaq sahəsinin suvarılması təmin edilib. Su anbarını lazımi miqdarda axınla təmin etmək üçün Bəşəriçay üzərində sərfi 10 $m^3$/san olan dağ tipli suqəbuledici tikilib.

**19** *1976-cı il 29 dekabr*

## Sərsəng su anbarının tikintisi

Mühüm strateji əhəmiyyətə malik olan Sərsəng su anbarı ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə Tərtərçayın üzərində inşa edilib. Sərsəng su anbarı və SES-in tikintisinə 1970-ci ildə başlanılıb. 1976-cı ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib.

Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir. Azərbaycanın ən bolsulu çaylarından olan Tərtərçayın üzərində yerləşir. Ümumi həcmi 560 milyon kubmetr olan su anbarı Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsidir.

Bəndin hündürlüyü 125, uzunluğu 555, eni isə 10,2 metrdir. Sərsəng su anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarında ümumilikdə 96 min hektardan çox ərazi suvarılır. Su anbarının bəndində ümumi gücü 50 meqavat olan su elektrik stansiyası tikilib.

**20** *1977-ci il*

## Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsi cəhdlərinin qarşısının alınması

1972-ci ildə Ermənistan SSR-in bir qrup ziyalısının imzası ilə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi Leonid Brejnevə göndərilən məktubda Ermənistan SSR və Dağlıq Qarabağın ayrı-ayrılıqda mövcudluğunun mümkünsüzlüyünü “əsaslandırmağa”

çalışan çoxlu sayda iddialar öz əksini tapmışdı. Müxtəlif tarixi, etnik və siyasi məzmunlu “arqument”lərlə yanaşı, erməni ziyalıları muxtar vilayətin sosial-iqtisadi göstəricilərinin də “zəif olduğunu” əsas kimi göstəriblər.

Ümummilli Liderin imzası ilə Moskvaya göndərilən məktubda göstərilən faktlar İrəvandan gedən məktubdakı bütün iddiaları alt-üst edib. Ermənilərin növbəti cəhdi də iflasa uğrayıb. Məhz ümummilli lider Heydər Əliyevin siyasi çevikliyi, zəkası Azərbaycan xalqının taleyinə yazıla biləcək böyük bir faciənin qarşısını alıb.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasının hazırlanması zamanı erməni ziyalılarının bir qrupu tərəfindən Konstitusiya Komissiyasına DQMV-nin və Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsini nəzərdə tutan daha bir müraciət daxil olub. Heydər Əliyev komissiyanın üzvlərindən biri idi. Məktubla bağlı məlumat alan kimi dərhal buna öz qəti və kəskin etirazını bildirib. Lakin etirazın nəzərə alınmamaq ehtimalını görərək Brejnevə məlumat verib. Həmin tarixi anı Ümummilli Lider belə xatırlayırdı:

*“Komissiyanın iclasında iştirak etmək üçün Moskvaya getmişdim və gördüm ki, “Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır” kimi çoxsaylı ərizələr daxil olub. Görürəm, Ponomaryov deyir ki, bu məsələni Komissiyanın müzakirəsinə çıxarmaq lazımdır, ermənilər ona da təsir etmişdilər. Başa düşürsünüzmü ki, bu məsələnin Komissiyanın müzakirəsinə çıxarılması faktının özü nə deməkdir? Mən hələ Komissiyanın iclasından bir gün əvvəl buna qəti şəkildə etiraz etdim, amma gördüm ki, yox... Mən yenidən mərhum Brejnevin yanına getdim. Ona dedim ki, bu nədir? Belə bir şey olmamalıdır! O, Ponomaryova zəng vurub dedi: “Bunu gündəlikdən çıxart”.*

**21** *1978-ci il 21 aprel*

## Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsi

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən, respublikanın rəhbəri Heydər Əliyev şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə, Konstitusiyada, Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir – maddəsi təsbit olundu. Bu cəsarətli addım milli hüquq və azadlıqların məhdudlaşdırıldığı bir ölkədə atılırdı. İllər sonra, 1995-ci ilin oktyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən ümumrespublika müzakirəsində Ulu Öndər o gərgin mübarizəni və qələbəni belə xatırlayırdı:

*"Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım oldu. O buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Siz nə üçün bizə mane olursunuz? Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu".*

## 22 *1979-cu il 12 yanvar*

## Ağdam–Xankəndi dəmir yolunun açılışı

1970-ci illərdə nəqliyyatın inkişafı ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olub. Bakı–Böyük Kəsik və Bakı–Yalama dəmir yolu xətləri elektrikləşdirilib. Bu da dəmiryolu ilə yükdaşımaların həcmini artırmağa imkan verib.

1979-cu ildə Ağdam–Xankəndi dəmir yolunun çəkilməsi başa çatdırılıb. Bununla, Qarabağ regionunu respublikanın digər bölgələri ilə daha sıx şəkildə bağlamaq mümkün olub. Dəmir yolunun uzunluğu 26 km-dən çox olan hissəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın qalan şəhərləri ilə birləşdirdi ki, bu da nəinki maddi-texniki təchizatı yaxşılaşdırmağa, həm də regionun iqtisadi göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına nail olmağa imkan verib.

Ağdam–Xankəndi dəmir yolunun fəaliyyətə başlaması ozamankı Dağlıq Qarabağ Muxtar Vilayətinin Bakıya daha sıx bağlı olması istiqamətində atılmış çox mühüm addımlardan biri kimi tarixə düşüb.

## 23 *1979-cu il 8 may*

## "Gülüstan" sarayının inşası

"Gülüstan" sarayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979–1980-ci illərdə Bakı Dövlət Layihə İnstitutunun layihəsi əsasında inşa edilib, ümumşəhər, habelə respublika miqyaslı kütləvi tədbirlərin keçirilməsinə hesablanmışdı. Sarayın tikintisinin yüksək səviyyədə aparılması ilə bağlı Ulu Öndər öz tövsiyə və tap-

şırıqlarını vermişdi. Layihənin müəllifləri sarayın arxitekturasında Azərbaycan milli memarlığının ənənəvi vahid motivlərini tətbiq ediblər: tağ sırası ilə çərçivələnmiş eyvanlar binanın ümumi fasadına özünəməxsus görkəm bəxş edirlər.

Ulu Öndər bu sarayın tikintisinin gedişini şəxsən nəzarətdə saxlayıb, inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı mütəmadi olaraq tövsiyə və tapşırıqlarını verib. "Gülüstan" sarayı yalnız keçmiş Sovet İttifaqında deyil, daha geniş məkanda ən müasir və özünəməxsus gözəl arxitektura nümunələrindən biri hesab olunurdu. Bakının memarlıq ansamblını daha da gözəlləşdirən bu sarayın inşası Ulu Öndərin paytaxtımızın inkişafı ilə bağlı həyata keçirdiyi silsilə tədbirlərin tərkib hissəsi idi. Sarayın arxitekturasında Azərbaycanın milli memarlıq elementlərindən geniş istifadə olunub. Bakı neftinin dünya bazarına çıxarılmasını nəzərdə tutan "Əsrin müqaviləsi" 1994-cü ilin 20 sentyabrında bu sarayda imzalanıb.

2019-cu ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə binanın əsaslı təmirinə başlanılıb. 2021-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva "Gülüstan" sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

**24** ***1980-ci il 7 may***

## Taqanroqda 416-cı motoatıcı diviziyanın şərəfinə ucaldılmış abidənin açılışı

Ulu öndər Heydər Əliyevin Azərbaycanın İkinci Dünya müharibəsindəki rolunun təbliği üçün atdığı addımlardan biri də Taqanroq şəhərində 416-cı diviziyaya xatirə abidəsinin ucaldılması olub. Heydər Əliyevin təşəbbüsü və məqsədyönlü fəaliyyəti bu abidənin

açılmasına imkan yaratmaqla, həm də Azərbaycan xalqının faşizm üzərində qələbədə oynadığı müstəsna rolu dünyaya çatdırmağa xidmət edirdi. Ümummilli Lider bu hadisəni belə xatırlayırdı: *"Böyük Vətən müharibəsi vaxtında Azərbaycanda əksərən azərbaycanlılardan ibarət 416-cı Azərbaycan diviziyası yaranmışdı. Bu diviziya cəbhədə şücaətlə vuruşub, Taqanroq şəhərinin faşistlərdən azad olunmasında qəhrəmanlıq göstərmişdi. Bu diviziyanın qəhrəmanlığını əbədiləşdirmək üçün biz Rostov vilayəti rəhbərliyi ilə Taqanroq şəhərinin yaxınlığında abidə yaratmağı qərara aldıq. Azərbaycan Respublikasının hesabına orada böyük və əzəmətli bir memorial yaratdıq. Bir qrup müharibə veteranları ilə bir yerdə mən memorialın açılmasında iştirak etdim, nitq söylədim".*

2012-ci ildə 416-cı Taqanroq və 130-cu diviziyaların əsgərlərinin xatirəsinə ucaldılmış abidə kompleksi Azərbaycanın dəstəyi ilə əsaslı təmir edilib.

**25** ***1981-ci il 8 iyul***

## Bakı şəhərində Kitab evinin açılışı

1981-ci ildə Bakıda Kitab evi açılıb. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə açılan Kitab evi xalqın maariflənməsi, mənəvi inkişafı istiqamətində atılmış növbəti addımlardan biri idi. Həmin ildə respublikamızda fəaliyyət göstərən kitabxanaların (o cümlədən kütləvi, elmi, təhsil, texniki və s.) sayı əhəmiyyətli dərəcədə artmışdı. Bu Kitab evi keçmiş SSRİ-də sahəsinə görə 2-ci idi.

1970–1980-ci illərdə respublikamızda, demək olar ki, hər il kitabxana binaları tikilirdi. 1975-ci ildə kitabxanaların sayı 110 vahid çoxaldı, eləcə də bu məqsədlə büdcədən ayrılan vəsait artırıldı. Həyata keçirilən tədbirlər nəticəsində 1976–1980-ci illərdə Azərbaycanda dövlət büdcəsi hesabına 415 kitabxana binası tikildi. 1981-ci ildə təkcə Mədəniyyət Nazirliyinin xətti ilə 80 kitab-

xana istifadəyə verilmişdi. Ümumiyyətlə, 1970–1980-ci illərdə Azərbaycanın bütün rayon mərkəzlərində vahid tipli kitabxana binaları tikilib.

Müstəqilliyin ilk illərində kitabxanaların özəlləşdirilməsi, onların binalarının başqa məqsədlər üçün istifadə olunması ümummilli lider Heydər Əliyevin Fərmanı ilə qadağan edilib. Ölkədə mövcud kitabxana şəbəkələri qorunub saxlanılıb. Azərbaycan dövləti keçid dövrünün hər cür çətinliyinə baxmayaraq, bir sıra ictimai təşkilatların kitabxana şəbəkələri istisna olmaqla, dövlət kitabxana şəbəkələrini qorumağa müvəffəq olub.

**26** *1981-ci il 20 oktyabr*

## Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının açılışı

Ulu öndər Heydər Əliyevin səyi nəticəsində tikintisinə 1974-cü ildə başlanmış bu stansiyanın inşası ümumittifaq səviyyəsində aparılan tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır. Cənubi Qafqaz regionunun ən böyük istilik elektrik stansiyası olan 2400 meqavat gücə malik "Azərbaycan İstilik Elektrik Stansiyası"nın birinci enerji bloku 1981-ci ildə istismara verilib.

Öz dövrü üçün nəhəng infrastruktur layihəsi olan və respublikanın energetika sistemində xüsusi əhəmiyyəti ilə seçilən "Azərbaycan" İES elə o vaxtdan ölkənin elektrik enerjisinə tələbatının qarşılanmasında hər zaman birinciliyini qoruyub saxlayıb.

2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi əsasında "Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı şəkildə yenidən qurulub.

“Azərbaycan” İstilik Elektrik Stansiyasının birinci enerji blokunun istismara verildiyi 20 oktyabr Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 13 oktyabr tarixli 446 saylı Sərəncamına əsasən, hər il Energetiklər Günü kimi qeyd edilir.

**27** ***1982-ci il 14 yanvar***

## Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı

1967-ci ildə ümummilli lider Heydər Əliyev Şuşada olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etmək istəyir, lakin görkəmli şairin məzarının harada olduğunu müəyyən etmək mümkün olmur. Ulu Öndərin göstərişi ilə məzar tezliklə tapılır. 70-ci illərin əvvəllərində bərbad halda olan, dağılmış məzarı ziyarət edən Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev çıxışlarının birində Şuşada gördüyü məzarın Molla Pənah Vaqifə layiq olmadığını söyləyib. Beləliklə, Ulu Öndərin göstərişi ilə Vaqifin məzarı üstündə abidə və türbənin inşasına başlanılıb.

Kompleks Şuşa şəhərinin Cıdır düzünə yaxın ərazidə çəhrayı rəngli yerli mərmərdən inşa edilib. O zaman muzeydə Molla Pənah Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid 80-ə yaxın eksponat da sərgilənirdi. 1982-ci il yanvarın 14-də Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin və Şuşada Poeziya Evinin təntənəli açılışı olub.

1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarca eksponat məhv edilib, aparılması mümkün olan eksponatlar isə Ermənistana daşınıb. Azərbaycan ordusu 2020-ci il noyabrın 8-də Şuşa şəhərini işğaldan azad etdikdən sonra Vaqifin muzey-məqbərə kompleksi Heydər Əliyev Fondu tərəfindən tam bərpa edilib.

39 ildən sonra, 2021-ci ilin 14 yanvarında tarixi məqbərənin qarşısında çıxış edən Prezident İlham Əliyev həmin günləri belə xatırlamışdı: *"...Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı".*

**28** ***1982-ci il 22 mart***

## Cəfər Cabbarlının heykəlinin açılışı

Bakı Dəmir Yolu Vağzalının qarşısında meydanda Cəfər Cabbarlının heykəlinin qoyulması barədə qərar 1959-cu ildə qəbul olunub. Elan edilən müsabiqədə Mirələsgər Mirqasımovun layihəsi ən yaxşı layihə kimi qalib gəlib.

Mirələsgər Mirqasımov material almaq üçün həyat yoldaşı Gültəkin xanım ilə birlikdə Ukraynaya gedib. Nikita Xruşşovun rəhbərliyi dövründə uzun müddət bu iş dayandırılıb.

70-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev məsələyə müdaxilə edib. O, işin gedişini şəxsən nəzarətə götürüb. 1979-cu ildə Ulu Öndər heykəltaraşlıq seminarına gəlir, bir sıra əsərlərin eskizləri ilə tanış olur. Bu dövrədək üzləşdiyi haqsızlıqlara görə rəssamın səhhətində ciddi problemlər yaranır. Heydər Əliyevin göstərişinə əsasən Birinci katibin şəxsi həkimi heykəltaraşın sağlamlığı ilə məşğul olur.

Cəfər Cabbarlının heykəlinin daşı Ukraynadan gətirilmişdi. Daşı Bakıya çatdırmaq üçün onu kəsib vaqona qoymaq təklif olunsa

da, Heydər Əliyev bununla razılaşmayıb və tapşırıq verib ki, daş bütöv gətirilsin. Beləliklə, heykəl bütöv daşdan hazırlanır.

Tezliklə M.Mirqasımov həyatında ən vacib məsələlərdən biri hesab etdiyi işi başa çatdırır. Heykəlin 1982-ci il martın 23-də keçirilən açılışında ulu öndər Heydər Əliyev şəxsən iştirak edib.

**29** *1982-ci il 29 iyul*

## Şuşada Vaqif Poeziya Günlərinin təşkili

1982-ci il iyul ayının 22-də Şuşa rayon Partiya Komitəsində təcili yığıncaq çağırılmışdı. Yığıncaqda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin Şuşaya poeziya bayramına gəlişi ilə bağlı hazırlıq işləri müzakirə edilirdi. Hər kəsə aidiyyəti üzrə tapşırıqlar verildi. Vaqif Poeziya Günləri iyul ayının 29-da keçirilməli idi. Bu tədbirə respublikanın rəsmi şəxslərindən və ziyalılarından ibarət böyük bir nümayəndə heyətinin gəlişi gözlənilirdi.

İyul ayının 29-da səhər Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev, onun həyat yoldaşı – Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi Zərifə xanım Əliyeva və oğlu – Azərbaycanın indiki Prezidenti İlham Əliyev, eləcə də respublikanın mədəniyyət və elm xadimlərinin böyük bir qrupu poeziya bayramının açılışına gəlmişdilər.

Ənənəyə çevrilən və Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri 1991-ci ilədək hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb, Cıdır düzündə yekunlaşırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə 2021-ci il avqustun 30-da şairin doğma şəhərində yenidən təşkil olunan Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimindəki çıxışı zamanı həmin tarixi belə xatırlayır:

*"Əziz dostlar, təxminən, 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq".*

**30** ***1982-ci il 3 avqust***

## Şuşada Natəvanın abidəsinin açılışı

Xurşidbanu Natəvanın heykəli Əməkdar incəsənət xadimi Həyat Abdullayeva tərəfindən şairənin anadan olmasının 150 illiyi münasibətilə hazırlanıb.

Şuşa Mədəniyyət Mərkəzi, Mədəniyyət Evinin həyətində yerləşdirilən heykəlin açılışında ümummilli lider Heydər Əliyev şəxsən iştirak edib.

1992-ci ilin may ayının 8-də Şuşanın işğalı zamanı bir çox tarixi-mədəni abidələr erməni qəsbkarların qurbanına çevrilib. Bu abidələr arasında digər heykəllərlə bərabər Natəvanın heykəlinə də zərər vurulub.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə heykəllərin əridilib yoxa çıxarılmasının qarşısı alınaraq, Bakıya gətirilib. Paytaxtda – Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılıb, 2000-ci ildən muzeyin kolleksiyasına daxil edilib.

Şuşa azad edildikdən sonra Prezident İlham Əliyevin tapşırığı ilə heykəllər yenidən əvvəlki yerinə gətirilib. Azərbaycan Prezidenti 2021-ci il yanvarın 14-də Şuşaya səfəri zamanı abidənin açılışını edib.

**31** *1982-ci il 2 noyabr*

## Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi

XX əsrin 30–40-cı illərində sovet rejiminin siyasi təqib və repressiya dalğasında uzaq Sibirə sürgün edilmiş Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında 1981-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunan qərar respublika ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılandı. Böyük ədibin qızı Turan Cavid onun bu sahədəki fəaliyyətinə yüksək qiymət verərək yazırdı: “Atama əsl bəraəti Heydər Əliyev verdi”.

1982-ci ildə Heydər Əliyevin böyük səyləri nəticəsində H.Cavidin cənazəsi Sibirdən Azərbaycana gətirilərək şairin doğulduğu Naxçıvan şəhərində torpağa tapşırıldı. 1992-ci ildə Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri işlədiyi illərdə H.Cavidin 110 illiyinin qeyd olunmasını təmin etdi.

1996-cı ildə isə Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə H.Cavidin məzarı üzərində möhtəşəm abidə ucaldıldı. Həmin il oktyabrın 29-da böyük ədibə ehtiram əlaməti olaraq ucaldılan məqbərənin açılışı oldu.

Ulu öndər Heydər Əliyev bu tarixi belə xatırlayırdı:

*“Hüseyn Cavidin cənazəsini Sibirdən gətirəndən sonra onun dəfni ilə əlaqədar Azərbaycanda fikir müxtəlifliyi oldu. Bəziləri onun Bakıda Fəxri xiyabanda dəfn olunması, bəziləri isə Naxçıvan torpağında, şəhərin mərkəzində dəfn olunması fikrini irəli sürdülər. Bu məsələni biz həm alimlərlə, həm yazıçılarla geniş müzakirə etdik və ümumi fikir belə oldu ki, cənazə Naxçıvana gəlsin. Bir ona görə yox ki, o burada, Naxçıvanda doğulub, ona görə ki, burada onun məzarının üzərində böyük bir məqbərə, mavzoley ucalsın. Bu bir ziyarətgah olsun. Qədim Naxçıvan diyarında böyük memarımız Əcəmi Naxçıvaninin yaratdığı mavzoleylə yan-yana, yeni bir mavzoley də 800 il bundan sonra bugünkü təsirlər yaratsın. Hüseyn Cavid belə bir mavzoleyə, belə bir məqbərəyə layiq bir adamdır”.*



Heydər Əliyev tikinti obyektlərinin birində işlərin gedişi ilə tanış olarkən. 1970-ci il.



Kür su nasos qurğusunun işə salınması. 1970-ci il.



Gəncə şəhərində çini qablar zavodunda. 1971-ci il.



Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyinə həsr olunmuş yığıncaqda. 1972-ci il.



Cəmşid Naxçıvanski adına Hərbi İnternat Məktəbində. 1973-cü il.



Beynəlxalq Astronavtika Konqresində. 1973-cü il.



Bakıda, Məişət Kondisionerləri Zavodunda. 1975-ci il.



Yuxarı-Xanbulançay su anbarının açılışında. 1976-cı il.



“Neftçi” futbol komandasının oyunçuları ilə görüş. 1976-cı il.



Bakıda metro stansiyasının açılışında. 1976-cı il.



Yeni Neftayırma Zavodunda. 1976-cı il.



Salyanda sakinlərlə görüş. 1977-ci il.


Heydər Əliyev pambıq tarlasında. 1977-ci il.


Azərbaycan rəssamlarının kollektiv sərgisində. 1977-ci il.


Gəncə Xalça-Mahud Kompleksində. 1978-ci il.


Azərbaycan SSR Rəssamlar İttifaqının Bədii Fondunun yaradıcılıq istehsalat zavodunda. 1979-cu il.



Fikrət Əmirovun “Min bir gecə” balet tamaşasından sonra. 1979-cu il.



Qızlar internat məktəbində. 1979-cu il.



Taqanroqda 416-cı motoatıcı diviziyanın şərəfinə ucaldılmış abidənin açılışı. 1980-ci il.



“Möminə xatun” məqbərəsinin qarşısında. 1980-ci il.


Elmi Tədqiqat Kardiologiya İnstitutunun açılış mərasimində. 1980-ci il.


Ordubadda rayon zəhmətkeşləri ilə görüş. 1980-ci il.



SSRİ-nin ən qocaman kolxozçusu Hacıbaba Məşədovla pambıq tarlasında. 1980-ci il.




Bibiheybət Neft və Qazçıxarma İdarəsində görüş. 1981-ci il.


Nizami Gəncəvinin 840 illik yubileyinə həsr olunmuş rəsm sərgisində. 1981-ci il.


Bakıda təltif olunmuş şair və yazıçılarla görüş. 1981-ci il.



SSRİ rəhbəri L.İ.Brejnevin Azərbaycana səfəri. 1982-ci il.



Cəfər Cabbarlının abidəsinin açılış mərasimi. 1982-ci il.


Şuşada Vaqif Poeziya Günləri. 1982-ci il.


Lənkəran Çay Qablaşdırma Zavodunda. 1982-ci il.



Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi. 1982-ci il.

*II FƏSİL*

# HEYDƏR ƏLİYEV SSRİ RƏHBƏRLİYİNDƏ

*(1982–1987)*

**32** *1982-ci il 22 noyabr*

## Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosuna üzv seçilməsi

Sov.İKP MK-nın 1976-cı il 5 mart tarixli plenumu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevi Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd seçib. 1982-ci ilin noyabrında isə Heydər Əliyev Siyasi Büronun üzvü seçilib və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib.

Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə məsul idi. SSRİ məkanında bir neçə mühüm layihənin həyata keçirilməsi məhz onun adı ilə bağlıdır. Ölkənin ağır sənaye, nəqliyyat, tikinti, səhiyyə, təhsil, gənclərlə iş kimi əhəmiyyətli sosial-iqtisadi sahələrinə nəzarət edirdi. Ümummilli Lider Nazirlər Soveti sədrinin birinci müavini kimi 60-dan çox ümumittifaq nazirliklərinin, komitə və digər mərkəzi idarələrin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirirdi.

SSRİ-nin o dövrdəki siyasi liderlərindən A.Qromıko və K.Çernenkodan sonra Sov.İKP Mərkəzi Komitəsinin baş katibliyinə mümkün namizədlər arasında ən çox Heydər Əliyevin adı keçirdi.

Ulu Öndər 1987-ci ilin oktyabrında Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən Baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verib.

**33** *1983-cü il 4 mart*

## Baykal–Amur dəmiryol xəttinin tikintisi üzrə hökumət komissiyasının ilk iclası

SSRİ miqyasında ən böyük layihələrdən biri Baykal–Amur magistralının (BAM) tikintisi idi. 1983-cü il martın 4-də SSRİ Nazirlər Sovetinin xüsusi komissiyasının Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk iclasında magistralın tikintisində ciddi çatışmazlıqlar üzə çıxarıldı. Yollar Nazirliyi və Nəqliyyat-Tikinti Nazirliyi qarşısında təcili olaraq çatışmazlıqların aradan qaldırılması və perspektiv inkişaf proqramı işləyib hazırlamaq vəzifəsi qoyulub.

Heydər Əliyevin birbaşa nəzarət etdiyi, miqyasına görə dünyada analoqu olmayan layihə böyük olduğu qədər də çoxsaylı problemlərə malik idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisi vüsət götürən magistralın 210-cu kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edildi və onun ətrafında Ulkan qəsəbəsi salınıb. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilib. Azərbaycanlıların da iştirakı ilə tikilən və uzunluğu 209 kilometr olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırılıb.

Baykal–Amur magistralının (BAM) tikintisini sürətləndirmək məqsədilə Heydər Əliyev 1984-cü il iyunun 3-dən 10-dək regionda olub, fəhlə və mütəxəssislərlə görüşüb, tikinti obyektlərinə baxış keçirib. İyulun 5-də Sov.İKP MK Siyasi Bürosunun iclasında Heydər Əliyevin Baykal–Amur dəmir yolunun tikintisi ilə əlaqədar məruzəsi dinlənilib.

2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verildi. 2021-ci il noyabrın 29-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın “BTS-MOST” Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə yayımlanan

videomaterialda Ulu Öndərin xidmətləri xüsusi qeyd olunub: *"Siyasi Büro əvvəlcə cəmi səkkiz tunel planlaşdırmışdı. Heydər Əliyev gələndə fəhlələr ona izah etdilər ki, əlavə iki dolanbac tunel tikilməsi də zəruridir. Heydər Əliyev "Bamtonnelstroy" işçiləri ilə birgə elə yerindəcə qərar qəbul etdi. Orada daha iki dolanbac tunel tikildi. Təsəvvür edirsinizmi? Bu, çox mürəkkəb, çox maraqlı obyektdir və indiyə qədər dünyada ən mürəkkəb obyektlərdən biri kimi qalır".*

**34** ***1983-cü il 17 iyun***

## İkinci dəfə Sosialist Əməyi Qəhrəmanı

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR 10 il ərzində SSRİ-də qabaqcıllar sırasında idi. Hər il keçici qırmızı bayraqla təltif edilirdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 24 avqust tarixli fərmanı ilə bütün respublikada xalq təsərrüfatının inkişaf etdirilməsi, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi, bütün kənd təsərrüfatı məhsulları planının və öhdəliklərin vaxtında və artıqlaması ilə yerinə yetirilməsini təmin etməkdə böyük təşkilatçılığına və siyasi işinə görə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əlirza oğlu Əliyevə "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilib.

1983-cü ilin 17 iyununda SSRİ Ali Soveti Rəyasət Heyətinin Sosialist Əməyi Qəhrəmanı, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Əliyev Heydər Əlirza oğlunun "Lenin" ordeni və ikinci "Oraq və çəkic" qızıl medalı ilə təltif edilməsi haqqında 7 may 1983-cü il tarixli fərmanı ilə Heydər Əliyev ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif edilib.

Heydər Əliyevə Sosialist Əməyi Qəhrəmanının Qızıl Medalını təqdim edərkən L.İ.Brejnev onun böyük fəaliyyətini və rəhbərə xas olan

zəruri keyfiyyətlərini göstərir və qeyd edirdi: *“Siz, Heydər Əliyeviç, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik etdiyiniz on ildə kommunist-rəhbərə xas olan zəruri keyfiyyətlərinizi inandırıcı nümayiş etdirdiniz. Siz Azərbaycan zəhmətkeşlərinin qazandığı yaxşı və yüksək nəticələrə böyük hədiyyənizi vermiş və vaxtı çatmış böyük vəzifələrin həll edilməsi üçün olan çatışmazlıqların aradan qaldırılmasında da az iş görməmisiniz. Buna görə də təltif olunursunuz, layiqli təltifdir”.*

**35** ***1986-cı il 31 iyul***

## Naxçıvanda Heydər Əliyevin büstünün açılışı

SSRİ Ali Soveti Rəyasət Heyətinin Sosialist Əməyi Qəhrəmanı, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Əliyev Heydər Əlirza oğlunun “Lenin” ordeni və ikinci “Oraq və çəkic” qızıl medalı ilə təltif edilməsi haqqında 7 may 1983-cü il tarixli fərmanında deyilirdi: *“Kommunist Partiyası və Sovet dövləti qarşısında böyük xidmətlərinə görə və anadan olmasının 60 illiyi münasibəti ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sosialist Əməyi Qəhrəmanı Əliyev Heydər Əlirza oğlu “Lenin”ordeni və ikinci “Oraq və çəkic” qızıl medalı ilə təltif edilsin.*

*Qəhrəmanın vətənində tuncdan büstü qoyulsun”.*

Heykəltaraş Ömər Eldarovun xatirələrindən:

*“Heydər Əliyevə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adı veriləndə o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idi. Bu ad veriləndə reqlament üzrə həmin şəxsin büstünün öz vətənində qoyulması şərt idi. O, məsuliyyətli biri kimi bu işə çox diqqətlə yanaşdı və məni Moskvaya dəvət elədi. Bu büst Naxçıvanda qoyulmalı idi və heykəl üzərində işləməyim üçün Heydər Əliyevin fotolarını çəkdik. Moskvada çəkdiyim bu etüd sonradan Heydər Əliyevin obrazını yaratmağıma çox yardımçı oldu. İş orasındadır ki, onun sağ ikən icazə verdiyi yeganə skulptur bu büst olub. Nə bundan əvvəl, nə də sonra şəxsən buna icazə verməmişdi”.*

**36** *1987-ci il 21 oktyabr*

## SSRİ rəhbərliyinin Heydər Əliyevə qarşı məkrli hücumları

Sov.İKP MK-nın plenumunun 21 oktyabr 1987-ci il tarixli qərarı ilə Heydər Əliyev öz xahişi ilə səhhəti ilə əlaqədar Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən azad olunur. SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri təyin edilir. 24 oktyabrda SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilir.

Həmin il oktyabrın 21-də keçirilmiş Sov.İKP MK-nın plenumu haqqında məlumatda deyilirdi: *"Səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar plenum Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə H.Ə.Əliyev yoldaşın xahişini təmin etmişdir".*

Həmin il oktyabrın 24-də "Pravda" qəzetində dərc edilmiş məlumatda isə deyilirdi: *"SSRİ Ali Sovetinin Rəyasət Heyəti səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barədə Heydər Əliyev yoldaşın xahişini təmin etmişdir".*

SSRİ Ali Sovetinin 1988-ci ildə mayın 26-da çıxardığı qətnamədə də göstərilmişdi ki, Heydər Əliyev tutduğu vəzifədən səhhəti və pensiyaya çıxması ilə bağlı azad edilib. SSRİ kimi böyük bir ölkədə yüksək siyasi nüfuza malik olan görkəmli siyasi və dövlət xadimi haqqında bu məlumatlar tezliklə bütün dünyaya yayıldı, ciddi əks-səda doğurdu.

Ulu öndər Heydər Əliyev 1990-cı il fevralın 9-da Rusiya televiziyasının aparıcısı Andrey Karaulovla söhbətində iştirak edən "Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remnikin sualına cavabında həmin səbəbləri belə izah edirdi:

*"Səbəblər odur ki, işlədiyim son dövrdə Qorbaçov tərəfindən özümə qarşı qeyri-səmimi münasibət hiss edirdim. Bu, çox şeydə özünü büruzə*

*verirdi. Mən vicdanla işləyirdim, işimdə heç bir qüsur görmürdü. Qorbaçov isə subyektiv hisslərinin əsiri oldu, vəssalam".*

Heydər Əliyevin istefaya göndərilməsinin səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini ələ almış erməni lobbisinin ona qarşı fəaliyyəti idi.

**37** ***1988-ci il 21 sentyabr***

## "Literaturnaya qazeta"da Heydər Əliyevin əleyhinə "Sürəkli alqışlar" adlı məqalənin dərci

Azərbaycanda Heydər Əliyevə qarşı qarayaxma kampaniyası 70–80-ci illərdə vəzifədən çıxarılmış şəxslərin vasitəsilə həyata keçirilirdi. Onlar respublika KP MK-nın Birinci katibi Əbdürrəhman Vəzirovun himayəsi ilə mətbuata, o cümlədən televiziyaya ayaq açır, özlərini "qəhrəman" cildində təqdim edir, hər cür şər-böhtana əl atırdılar. Eyni zamanda, bu çirkin kampaniyaya mərkəzi mətbuat da cəlb olunmuşdu.

"Literaturnaya qazeta"nın 1988-ci il 21 sentyabr nömrəsində dərc olunmuş "Sürəkli alqışlar" ("Burnıye aplodismentı") sərlövhəli məqalənin müəllifi Arkadi Vaksberq Azərbaycan SSR Ali Sovetində 1978-ci ildə baş vermiş bir məsələni şişirdərək həmin dövr üçün xarakterik hadisə kimi qələmə verirdi. Ali Sovetin sessiyasında respublikada qazanılmış nailiyyətlərin üzərinə kölgə salmağa yönəlmiş bir çıxışa deputatların əksəriyyətinin etirazını çox təmtəraqlı verməklə müəllif ovaxtkı rəhbərlik haqqında neqativ rəy yaratmaq niyyəti güdürdü. Halbuki deputatlar çıxışa obyektiv yanaşmışdılar. Onların etirazları televiziya, radio və mətbuat materiallarına, habelə respublika üzrə hər kəsə məlum olan faktlara əsaslanırdı.

Elə həmin gün "Sosialistiçeskaya industriya" qəzetində Heydər Əliyev əleyhinə sifarişli məqalə dərc edilmişdi. Bu, artıq Heydər

Əliyevə qarşı böyük bir kampaniyanın başladığını göstərirdi. Zaman da kifayət qədər maraqlı bir dövrə təsadüf edirdi: Qarabağda separatizm meyillərinin gücləndiyi bir dövrə...

**38** *1990-cı il 21 yanvar*

## 20 Yanvar faciəsinə etiraz bəyanatı

1990-cı ilin 20 yanvarında Azərbaycanın Moskvadakı daimi nümayəndəsi S.İbrahimov Heydər Əliyevə zəng edərək onu 20 Yanvar faciəsi barədə məlumatlandırıb. 21 yanvar 1990-cı ildə Heydər Əliyev daimi nümayəndəliyə gələrək, yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qırğınlarla əlaqədar bəyanat verib.

Baş verən hadisələri hüquqa, demokratiya prinsiplərinə zidd hesab edən Heydər Əliyev yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb edib.

Heydər Əliyevin bu bəyanatı nəinki SSRİ-də, eləcə də dünyanın digər bölgələrində böyük rezonans doğurdu. 20 Yanvar faciəsi barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində mühüm addım oldu.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyev



Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevin Vyetnama səfəri. 1983-cü il.



Heydər Əliyev Çerepovets Metallurgiya Zavodunda. 1983-cü il.



Heydər Əliyevin Voloqdaya səfəri. 1983-cü il.



Kremldə təntənəli mərasimdə. 1983-cü il.



Heydər Əliyev Vyetnamda Fəlay İES-in rəsmi açılışı zamanı. 1983-cü il.



Sov.İKP MK-nın Baş katibi Yuri Andropov SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə mükafat təqdim edir. 1983-cü il.



Fransa Respublikasının Prezidenti Fransua Mitteranın SSRİ-yə rəsmi səfəri. 1984-cü il.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin Baykal-Amur Magistralı marşrutu üzrə səfəri. 1984-cü il.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisində iştirak edən fəhlələrlə görüşü. 1984-cü il.



Heydər Əliyev Sov.İKP Siyasi Bürosunun üzvləri ilə.



74 nömrəli peşə məktəbində. 1984-cü il.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev, Laos XDR Nazirlər Şurasının sədri Kayson Fomvikhan. 1985-ci il.


Belqorodda 42 nömrəli nümunəvi orta məktəbdə. 1985-ci il.




Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin Tatarıstana səfəri. 1985-ci il.



Dəmiryolu nəqliyyatı ilə bağlı məsələlərin müzakirəsi zamanı.
Kurqan. 1985-ci il.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin Volqoqrad səfəri. 1987-ci il.




Anqoya stansiyasının vağzalında Heydər Əliyevin xatirəsinə barelyef.



Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin Bakıya səfərlərindən biri.



Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyev partiyanın iclaslarından birində çıxış edərkən.

*III FƏSİL*

# HEYDƏR ƏLİYEVİN NAXÇIVANDA FƏALİYYƏT DÖVRÜ

*(1990–1993)*

**39** *1990-cı il 22 iyul*

## Naxçıvana gəlişi

Ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvana gəlib. Elə həmin gün şəhər meydanında əhali ilə görüşüb.

1990-cı il avqustun 21-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) Ali Sovetinin Rəyasət Heyəti Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul edib.

1990-cı il 30 sentyabr seçkilərində o, Nehrəm seçki dairəsindən Azərbaycan SSR-in xalq deputatı, Naxçıvan Alt Trikotaj Fabriki kollektivi tərəfindən isə Naxçıvan MSSR-in xalq deputatı seçilib.

**40** *1990-cı il 17 noyabr*

## Naxçıvan MSSR Ali Sovetinin I sessiyası

Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə 1990-cı ilin 17 noyabrında Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyası öz işinə başlayıb.

Sessiyada qəbul olunmuş qərara uyğun olaraq "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adından "Sovet" və "Sosialist" sözləri çıxarılıb, onun "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edilib. Eyni zamanda, Naxçıvan MR Ali Sovetinin Ali Məclis adlandırılması barədə qərar qəbul olunub.

Azərbaycanın milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi qərara alınıb.

1990-cı il 21 noyabrında Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” qərar qəbul edib.

**41** ***1990-cı il 14 dekabr***

## Naxçıvan Ali Məclisində Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi

Naxçıvan Ali Məclisində 1990-cı il dekabrın 14-də Heydər Əliyev tərəfindən hazırlanmış “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında” qərar qəbul edilib.

Qərarda Azərbaycanın partiya və dövlət rəhbərliyinin DQMV-də yaranan vəziyyətin qiymətləndirilməsi və normallaşdırılması məsələsində kobud səhvlərə, yanlışlıqlara yol verdiyi, qətiyyətsizlik göstərərək respublikanın dövlət suverenliyini və ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəf və ləyaqətini müdafiə etmədiyi bildirilirdi.

Ali Məclisin bu qərarı respublika rəhbərliyinin Dağlıq Qarabağ məsələsinin həllində tutduğu yanlış, prinsipsiz mövqeyinin mahiyyətini açıb göstərirdi.

Heydər Əliyevin Ali Məclisdə milli maraqlardan çıxış edərək Azərbaycanda müstəqil dövlətçiliyin yaradılması və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı əsaslandırılmış təkliflər irəli sürməsini siyasi hakimiyyət həzm edə bilmirdi.

**42** *1991-ci il 14 yanvar*

## SSRİ-nin saxlanılması məsələsinə münasibəti

Ulu öndər Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin 1991-ci il yanvarın 14-də keçirilən sessiyasında 1991-ci il martın 17-də SSRİ-də ittifaqın saxlanılması məsələsi ilə bağlı gözlənilən referendumla əlaqədar çıxış edərək yeni ittifaq layihəsinin milli maraqlara zidd olduğunu bildirib:

*"Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğu üçün Ali Məclis bu barədə çox təfsilatlı, mükəmməl qərar qəbul etməli, onu təxirə salmadan Azərbaycanın və SSRİ-nin Ali sovetlərinə göndərməlidir. Əsaslandırılmalıdır ki, hansı səbəblərə görə bu layihə qəbul edilmir".*

**43** *1991-ci il 5 fevral*

## Azərbaycan SSR Ali Sovetinin XII çağırış birinci sessiyasında çıxışı

SSRİ-də ittifaqın saxlanılması məsələsi ilə bağlı gözlənilən referendumla əlaqədar Heydər Əliyev 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasında da təkidlə söz alaraq tarixi bir çıxış etdi. O öz çıxışında *"kommunist partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik mübarizələrinin qalibiyyətinin dönməz bir proses olduğunu"* xüsusi vurğuladı və öz mövqeyini tutarlı faktlarla əsaslandırdı.

Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev növbəti dəfə Azərbaycanın milli müstəqillik və suverenli-

yi məsələsinə qayıtdı. Ümummilli Lider müstəqilliyin tarixi şans olduğunu və vacibliyini, ona çatmağın yollarını, əsas vasitələrini göstərən çıxışında onu da vurğuladı ki, respublika rəhbərliyinin imzalamağa hazırlaşdığı "yeni ittifaq müqaviləsi" Azərbaycan üçün tam yararsızdır.

*"...Mən yeni ittifaqa daxil olmağın və bunun üçün hər hansı referendum keçirməyin əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır".*

Lakin Ali Sovetin sessiyasında Azərbaycanın referendumda iştirak etməsi səs çoxluğu ilə qəbul edilmişdi. "Həyat" qəzeti "Çoxluq referenduma tərəfdardır" adlı sessiyadan reportajında yazırdı: *"Deputat Heydər Əliyevin də ətrafında yığışanlar çox idi. Onun bugünkü çıxışı da salonda səs-küyə səbəb oldu. Hətta az qalmışdı ki, müzakirə olunan məsələ yenə yaddan çıxsın..."*

*..."Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrəşmişəm. Ona görə də heç narahat olmayın. Mən öz vicdanım qarşısında cavabdeh olaraq bu gün bu çıxışı edirəm".*

**44** ***1991-ci il 19 iyul***

## Kommunist Partiyasının sıralarını tərk etməsi

Ulu Öndər Dağlıq Qarabağda yaranmış kəskin vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

Heydər Əliyevin hələ sovet hökumətinin mövcud olduğu vaxtda SSRİ Nazirlər Sovetinin partiya təşkilatına Komminist Partiyası sıralarından çıxmasını rəsmi şəkildə bəyan etməsi onun müstəqillik

ideyalarına inamının göstəricisi idi: *"Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı. Zorakılıqla yaradılan və saxlanan respublikaların ittifaqı süquta uğramaqdadır.*

*Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edir, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.*

*Partiyanın keçdiyi yolun ətraflı təhlili məni yuxarıda bəyan etdiyim indiki mövqeyə gətirmişdir".*

**45** ***1991-ci il 30 avqust***

## "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə ilə bağlı çıxışı

1991-ci ilin 24 avqustunda ulu öndər Heydər Əliyev növbədənkənar fövqəladə sessiyanın çağırılması ilə əlaqədar Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə məktubla müraciət edir.

1991-ci ilin 29 avqustunda Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqiblərə məruz qalır.

1991-ci il 30 avqustda Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycanın müstəqillik Bəyannaməsi" ilə bağlı çıxışında Azərbaycanın müstəqilliyinin elan olunmasını təklif edib. Ümummilli lider Heydər Əliyev bildirib ki, bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub.

Bəziləri sessiyada Ulu Öndərin çıxışına mane olmağa çalışıblar. Lakin Ümummilli Liderin çıxışını yarımçıq kəsmək cəhdləri nəticəsiz qalıb. Sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edilib. Ulu Öndər bəyannamənin lehinə səs verib.

Bu çıxışdan sonra Heydər Əliyev Bakıya qayıdanadək, 1993-cü il iyunun 9-dək Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında iştirak etməyib.

**46** ***1991-ci il 3 sentyabr***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi

1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sessiyası Azərbaycan Respublikası və Naxçıvan MR-in xalq deputatı Heydər Əlirza oğlu Əliyevi Ali Məclisin sədri seçib.

Sentyabrın 3-də sessiya öz işinə başlayır. Bu vaxt Naxçıvanın hər yerindən Ali Məclisin binası qarşısında əllərində Heydər Əliyevin portretləri olan seçicilər toplaşmışdılar. Xahiş edirdilər ki, Naxçıvan MR Ali Məclisinə Heydər Əliyevi sədr seçsinlər. AXC Naxçıvan Vilayət şöbəsinin fəallarının əksəriyyəti isə bildiriblər ki, Heydər Əliyev sədr seçilərsə, onun əleyhinə geniş kampaniyaya başlayacaqlar. Lakin seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan MR Ali Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürüblər. Heydər Əliyev üç dəfə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə verməyib. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfəri bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçilib. Ermənilərin blokadaya aldığı Naxçıvan məhz Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində real işğaldan və başqa təhlükələrdən xilas olub.

"Həyat" qəzetinin 5 sentyabr 1991-ci il tarixli nömrəsində dərc olunmuş hesabatda deyilirdi: *"Heydər Əliyev dərhal söz alaraq namizədliyini geri götürdüyünü bildirmişdir. Lakin bir neçə deputat təkidlə onun namizədliyi üzərində dayanmışdır. Deputat Heydər Əliyev dəfələrlə tribunaya qalxıb razı olmadığını israrla bildirsə də, Məclis əksər səslə onu Ali Məclisin sədri seçmişdi".*

"Şərq qapısı" qəzeti xüsusi buraxılış səhifəsində Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə seçilməsinə dair "Məclis iflic vəziyyətindən çıxır" başlıqlı məqalədə bu hadisənin Naxçıvanın müqəddəratında həlledici əhəmiyyəti olduğunu qeyd edirdi. Məqalədə Heydər Əliyevin xalqın tələbi ilə seçilməsi göstərilirdi.

**47** ***1991-ci il 16 dekabr***

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyi ideyasını irəli sürərək, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi qeyd olunmasını təklif edib.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 6 bənddən ibarət qərarında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunması əksini tapıb.

Ali Məclis hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi haqqında qərarın rəsmiləşdirilməsi barədə Azərbaycan Respublikasının Ali Sovetinə qanunvericilik təşəbbüsü ilə müraciət göndərib.

1993-cü ildə dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunub.

**48** *1992-ci il 22-24 mart*

## Türkiyə Respublikasına səfər

1992-ci ilin martında Türkiyəyə səfər edən ulu öndər Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla və Baş nazir Süleyman Dəmirəllə təkbətək görüşüb.

Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolunu Baş nazir Süleyman Dəmirəllə birgə imzalayıb.

**49** *1992-ci il 28 aprel*

## Yaş senzinin ləğvi tələbi ilə aksiyaların başlanması

1992-ci aprelində Bakıda, Ali Sovetin qarşısında keçirilən mitinqin iştirakçıları Ali Sovetin çağırılmasını, Konstitusiyanın Azərbaycan Prezidenti üçün yaş həddini nəzərdə tutan bəndinə düzəliş edilməsini tələb edirdi. Onlar Heydər Əliyevin Azərbaycan Prezidentliyinə namizəd göstərilməsini istəyirdilər.

Yaş senzi haqqında qanun Ayaz Mütəllibovun hakimiyyəti dövründə qəbul edilmişdi. Bundan sonra 14 may 1992-ci il tarixində bir günlük hakimiyyətə qayıdan Ayaz Mütəllibovun və ya sonradan hakimiyyəti zəbt edən AXC-Müsavat cütlüyünün də Heydər Əliyevə qarşı münasibəti eyni idi.

Həmin dövrdə Azərbaycan parlamentində Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin siyasi fəaliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş qərarlar qəbul olunurdu. Belə ki, Naxçıvan

MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydası ləğv edilmişdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsinə qarşı qoyulan qadağanın, 121-ci maddənin ləğv olunması tələbi ilə Ali Sovetin qarşısında keçirilən mitinqlər ciddi rezonans doğurdu.

**50** ***1992-ci il 15 may***

## Hakimiyyət çevrilişi cəhdi ilə əlaqədar xalqa müraciət

1992-ci il mayın 15-də Ümummilli Lider Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Ayaz Mütəllibovun qanunsuz olaraq yenidən prezident kürsüsünü ələ keçirməsi ilə əlaqədar Naxçıvan televiziyası ilə əhaliyə müraciət edib.

Ali Sovetin fövqəladə sessiyasının qəbul etdiyi qərarı "antidemokratik tədbir" adlandırıb, xalqa qarşı cinayətə yol verildiyini bildirib.

1992-ci il mayın 18-də Yaqub Məmmədovun Ali Sovetin sədri vəzifəsindən azad edilməsindən sonra Ali Sovetin sədrliyinə Heydər Əliyevin namizədliyi göstərilib. Heydər Əliyevə zəng vurmağın mümkün olmaması kimi yersiz bəhanə ilə səsvermə bülleteninə onun adı daxil edilməyib.

**51** ***1992-ci il 28 may***

## "Ümid" körpüsünün açılışı

Ümummilli lider Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanıb. Bundan sonra Naxçıvanla Türkiyə Cüm-

huriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək–Dilucu körpüsünün tikintisinə başlanılıb.

Həmin il mayın 28-də iki xalq arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilib. Körpünün açılışında Türkiyənin ozamankı Baş naziri Süleyman Dəmirəl və qardaş ölkənin yüksək səviyyəli hökumət nümayəndələri də iştirak ediblər.

Ulu öndərimiz Heydər Əliyev körpünün açılışı zərurətini belə xarakterizə edirdi: *"Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Naxçıvan Türkiyəyə açıldı".*

**52** ***1992-ci il avqust-sentyabr-oktyabr***

## Azərbaycan Xalq Cəbhəsinin çevriliş cəhdi

1992-ci ilin avqustunda daxili işlər orqanlarında heç bir təcrübəsi olmayan, AXC-nin fəal üzvü S.Mustafayevin Naxçıvan Muxtar Respublikasında daxili işlər naziri təyin edilməsi vəziyyətin gərginləşməsinə gətirib çıxarıb. Naxçıvan MR Daxili İşlər Nazirliyi polis əməkdaşlarının 1 sentyabr 1992-ci il tarixli bəyanatında bu qərarın şəxsi heyətin ciddi etirazına səbəb olduğu və daxili işlər orqanlarını siyasi məqsədlərə tabe etdirən hərəkətlərə və cəhdlərə yol verilməyəcəyi bildirilib. Naxçıvan MR Ali Məclisinin sessiyasında Naxçıvan MR daxili işlər naziri təyin edilməsi haqqında məsələyə baxılıb və səs çoxluğu ilə qəbul edilməyib.

1992-ci il oktyabrın 24-də AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, tutduqları yerləri boşaltmağı tələb edib. Lakin bu, müsbət nəticə verməyib. Belə şəraitdə Naxçıvan MR Ali

Məclisinin qarşısında izdihamlı mitinq keçirilib. Mitinq iştirakçıları Heydər Əliyevlə həmrəy olduqlarını bildirib, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binasını boşaltmağı tələb ediblər.

Heydər Əliyev bir neçə dəfə Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb edib. Lakin bu çağırışlar nəticəsiz qalıb.

Oktyabrın 25-də Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət edib. Elə həmin gün Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci il oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən ələ keçirilməsi, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi kimi qiymətləndirilib. Məclis AXC silahlı qüvvələrinin üç gün ərzində tərksilah olunması haqqında qərar qəbul edib. Oktyabrın 27-də Naxçıvandakı Azadlıq meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan Prezidentindən Naxçıvana göstərilən zorakılıq hərəkətlərinin qarşısını almağı tələb ediblər.

Oktyabrın 28-də Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın başqa bölgələrində nisbi sakitlik yaranıb.

**53** ***1992-ci il 16 oktyabr***

## "91-lər"in müraciəti

Azərbaycan ziyalılarının bir qrupu (91-lər) ulu öndər Heydər Əliyevə müraciət edərək respublikanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün xalqı, sağlam düşüncəli bütün qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir ümumxalq

partiyasının yaradılması və ona rəhbərlik etməsi məsələsinə münasibət bildirməsini xahiş ediblər.

1992-ci il oktyabrın 24-də Azərbaycan ziyalılarının müraciətinə cavab olaraq mətbuatda Ulu Öndərin “Yeni, müstəqil Azərbaycan uğrunda” sərlövhəli məktubu dərc olunub.

1992-ci il noyabrın 5-də ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının təsis edilməsi üçün yaradılan təşkilat komitəsinin sədri seçilib.

**54** ***1992-ci il 21 noyabr***

## Yeni Azərbaycan Partiyasının təsis qurultayı

Ümummilli lider Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə ozamankı hakimiyyətin maneələr törətməsi ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi – 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək təsis konfransını orada keçirməyə nail olub.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirilib.

Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul edilib. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilib.

Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm rol oynayan siyasi təşkilata çevrilən Yeni Azərbaycan Partiyası yaradılıb.



Heydər Əliyev seçicilərlə. Naxçıvan, 1990-cı il.



Naxçıvan Ali Məclisinin iclasında. 1990-cı il.


Heydər Əliyev seçicilərlə. Naxçıvan, 1990-cı il.


Heydər Əliyev Bakıda Şəhidlər Xiyabanında. 1990-cı il.



Naxçıvanda, Ata ocağında olarkən, 1990-cı il.



Heydər Əliyev Naxçıvanda. 1990-cı il.



Parlamentin iclasında. 1991-ci il.



Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev iş otağında.



Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev mətbuata müsahibə verərəkən.



Naxçıvanda, "Ümid" körpüsünün açılışında çıxış edərkən.



Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev.



Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev sakinlərlə.

Ali Sovetdə çıxış edərkən.
1991-ci il.





Heydər Əliyevin Naxçıvan sakinləri ilə görüşü.



Naxçıvan məktəblilərinin Heydər Əliyevlə görüşü.

*IV FƏSİL*

# HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCANA RƏHBƏRLİYİ DÖVRÜ

*(1993–2003)*

**55** ***1993-cü il 15 iyun***

## Azərbaycanın milli qurtuluş tarixi

1993-cü ildə ölkədə yaranmış vətəndaş müharibəsi təhlükəsi xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışını zərurətə çevirib. AXC-Müsavat iqtidarı prosesləri idarə edə bilmədiyindən Heydər Əliyevə müraciət edib.

Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcəyi naminə, xalqın təkidli tələbi ilə iyunun 9-da Bakıya gəlib və ilk növbədə vəziyyətlə yerində tanış olmaq üçün Gəncəyə yola düşüb. Bütün imkanlarından istifadə edərək silahlı qarşıdurmanın kəskinləşməsinin qarşısını alıb. Parlamentin sədri, baş nazir, güc nazirliklərinin başçıları istefa verməklə məsuliyyətdən yaxa qurtarmağa cəhd edirdilər. Bu ağır anda bütün nəzərlər Heydər Əliyevə dikilmişdi.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib (Bu hadisənin əhəmiyyətini nəzərə alan Azərbaycan parlamenti 1997-ci il iyunun 27-də həmin tarixi Milli Qurtuluş Günü elan edib).

1993-cü il iyunun 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəyin Bakını tərk edərək Naxçıvanın Kələki kəndinə getməsi ölkədə onsuz da gərgin olan vəziyyəti daha da dramatikləşdirib. Heydər Əliyev Əbülfəz Elçibəyin gecəyarısı Bakını tərk edib Kələki kəndinə getməsi ilə əlaqədar televiziya ilə xalqa müraciət edib. Elçibəyin geriyə qayıtması üçün görülən tədbirlər heç bir nəticə vermədikdə, Heydər Əliyevin sədrliyi ilə Ali Sovetin, Prezident Aparatının, Nazirlər Kabinetinin, ayrı-ayrı nazirliklərin və baş idarələrin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib. Heydər Əliyev respublikanın bir qrup ziyalısını qəbul edib.

İyunun 23-də Heydər Əliyev Əbülfəz Elçibəyin Bakıya qayıtması barədə danışıqlar aparmaq üçün Naxçıvan Muxtar Respublikasına

getmiş nümayəndə heyətini qəbul edib. Əbülfəz Elçibəy 1993-cü il 24 iyun tarixli Fərmanla öz səlahiyyətlərini Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verib. İyunun 24-də Milli Məclisin qərarı ilə Ali Sovetin sədri Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başlayıb.

**56** ***1993-cü il***

## BMT Təhlükəsizlik Şurasının 853, 874, 884 saylı qətnamələrinin qəbulu

1993-cü ilin iyul ayının 23-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Ağdam rayonunu işğal edib.

İyulun 25-də Heydər Əliyev bölgədə yaranmış gərgin vəziyyətlə əlaqədar Bərdədə olub. İyulun 26-da erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının iclasının dərhal çağırılması xahişi ilə Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciət edib.

İyulun 29-da BMT TŞ-nin iclası keçirilib və burada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 853 saylı qətnamə qəbul olunub. Bu qətnamədə işğalçı qüvvələrin Azərbaycanın Ağdam da daxil olmaqla, bütün digər işğal olunmuş ərazilərindən çıxarılması tələbi qoyulmuşdu. Qətnamədə Azərbaycan vətəndaşlarının bir hissəsinin məcburi köçkün kimi yaşamasından narahatlıq ifadə edilir və tərəflərin münaqişəni dayandırmaq üçün atəşkəsə nail olmalarının zəruriliyi bildirilirdi.

1993-cü ilin avqustunda atəşkəs haqqında razılıq əldə olunsa da, Ermənistan buna əməl etməyib. 1993-cü il avqustun 18-də Heydər Əliyev Ermənistanın hərbi təcavüzünə son qoyulması ilə bağlı BMT qətnamələrinin yerinə yetirilməsi istiqamətində tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin baş katibinə məktub ünvanlayıb.

1993-cü il oktyabrın 14-də BMT TŞ yenidən Dağlıq Qarabağ problemini müzakirəyə çıxararaq 874 saylı qətnamə qəbul edib. Bu qətnamədə Minsk qrupu tərəfindən hazırlanmış "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli" təqdir olunur və bu plan əsasında münaqişənin nizamlanmasının mümkünlüyü bildirilirdi. Qətnamə atəşkəs imzalanmasını, hərbi əməliyyatları dayandıraraq erməni qoşunlarının son dövrlərdə işğal etdiyi Füzuli, Cəbrayıl, Qubadlı və digər ərazilərdən geri çəkilməsini tələb edirdi. Qətnamədə həmçinin əvvəlki 822 və 853 saylı qətnamələrə əməl edilməsi tələbi də öz əksini tapmışdı.

12 noyabr 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası sayca 4-cü, 884 saylı qətnamə qəbul edib. Qətnamədə xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsi, dinc əhaliyə qarşı hücumlar və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsi pislənilirdi.

**57** ***1993-cü il 3 oktyabr***

## Azərbaycan Respublikasının Prezidenti seçilməsi

Əbülfəz Elçibəyin geriyə qayıtması istiqamətində görülən tədbirlər heç bir nəticə vermədikdə, Ali Sovetin iyulun 15-16-da keçirilən iclaslarında Prezidentə etimadsızlıq məsələsi qaldırılıb.

İyulun 29-da Ə.Elçibəyə etimad barədə referendumun keçirilməsi qərara alınıb. Avqustun 29-da keçirilən referendumda xalq Ə.Elçibəyə etimadsızlıq göstərib.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanıb. Ulu Öndər 98.84 faiz səslə Azərbaycanın Prezidenti seçilib.

Ulu Öndərin müstəqil Azərbaycanda hakimiyyətdə olduğu 1993–2003-cü illərdə ölkədə davamlı ictimai-siyasi sabitlik təmin edildi, qanunsuz silahlı birləşmələr ləğv edilib. Azərbaycan düşü-

nülmüş və ardıcıl xarici siyasət strategiyası həyata keçirməyə başlayıb. Ermənistanla atəşkəs haqqında razılaşmanın əldə edilməsi milli dövlət quruculuğu prosesinə daha çox diqqət ayırmağa imkan yaradıb. "Əsrin müqaviləsi" imzalanıb, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilib.

Ümummilli Liderin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasətin sayəsində sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və ticarətdə əldə edilmiş yüksək nailiyyətlərin nəticəsində ölkədə ümumi daxili məhsul 1996–2002-ci illər ərzində 71,0 faiz artaraq 6,1 milyard manata çatıb. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manata yüksəlib.

**58** ***1993-cü il 24 noyabr***

## Çörək qıtlığı ilə bağlı fövqəladə müşavirə

1992–1993-cü illər Azərbaycanda ən ciddi problemlərdən biri də respublikada yaranmış ərzaq məhsulları qıtlığı idi. İnsanlar saatlarla çörək mağazalarının qarşısında növbədə dayanmalı olurdular.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən dərhal sonra bu problemin həlli üçün ardıcıl tədbirlər həyata keçirib. 1993-cü il noyabrın 24-də Prezident sarayında çörək və çörək məhsullarının, yanacaq və enerji daşıyıcılarının qiymətlərinin liberallaşdırılması və respublikada qışa hazırlıqla əlaqədar müşavirə olub.

Ümummilli liderin həyata keçirdiyi ardıcıl siyasət, enerji və çörək qıtlığının aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər barədə hökumətə verdiyi tapşırıqlar nəticəsində məhz bu tarixdən sonra Azərbaycanda çörək qıtlığı problemi tədricən aradan qaldırılıb.

**59** *1993-cü il 19-22 dekabr*

## Azərbaycan Prezidenti vəzifəsində ilk rəsmi səfəri

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin ilk rəsmi səfəri 1993-cü ilin dekabrında Fransadan başlayıb. Bu, müstəqil Azərbaycan dövlətinin başçısının Fransaya ilk səfəri idi.

Səfər zamanı Heydər Əliyev və Fransua Mitteran Yelisey sarayında Azərbaycan Respublikası və Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqaviləni imzalayıblar.

Səfər çərçivəsində "Yeni Avropa üçün Paris Xartiyası" da imzalanıb. Azərbaycan Prezidentinin səfərindən sonra tərəflər iqtisadi əlaqələri genişləndirməyə başlayıblar.

Heydər Əliyev 1995-ci ilin dekabrında Fransaya ikinci dəfə səfər edərək Azərbaycana investisiya qoyulmasına dair konfransın iştirakçısı olub və Fransa şirkətlərini Azərbaycana dəvət edib.

**60** *1994-cü il 5 yanvar*

## 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi

Ulu Öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunub.

Yanvarın 12-də 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə Dövlət Komissiyasının iclası keçirilib. Yanvarın 18-də Ulu Öndər Milli Məclisin 20 Yanvar hadisələrinə həsr olunmuş iclasında çıxış edərək bu faciəyə siyasi-hüquqi qiymət verilməsinin zəruriliyini vurğulayıb.

1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: *"Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".*

1994-cü il mart ayının 29-da ölkə parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edib. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini alıb.

**61** ***1994-cü il 8-11 fevral***

## Türkiyə Respublikasına ilk rəsmi səfəri

Ulu öndər Heydər Əliyev 8-11 fevral 1994-cü il tarixində Türkiyədə ilk rəsmi səfərdə olub. Fevralın 9-da iki dövlət arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş, ümumilikdə 16-dək sənəd imzalanıb.

Səfər çərçivəsində Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, görkəmli siyasi və ictimai xadim Mustafa Kamal Atatürkün və Azərbaycanın dövlət xadimi M.Ə.Rəsulzadənin məzarlarını ziyarət edib.

Fevralın 9-da ulu öndər Heydər Əliyev Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisində çıxış edib: *"Sizə bildirmək istəyirəm ki, xalqlarımızın keçmiş tarixi, bu günə qədər yaşadığımız dövr bundan sonra daha yaxın, daha çox dost və qardaş olmağımız üçün böyük təməldir. Əmin ola bilərsiniz ki, biz bu təməl əsasında bundan sonra da irəli gedəcəyik, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa*

*dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir. Bizim mövqeyimiz belədir. Biz bu yolla gedəcəyik və əmin olun ki, bugünkü Azərbaycan dövləti bu yola sadiqdir və sadiq qalacaqdır".*

**62** ***1994-cü il 8 may***

## "Bişkek protokolu"nun imzalanması

1993-cü ilin dekabr ayından etibarən Azərbaycan Silahlı Qüvvələri cəbhə xəttində uğurlu hücum əməliyyatları keçirməyə başlayıb. Cəbhə xəttinin cənub istiqamətində hücum edən Azərbaycan Silahlı Qüvvələri Horadiz qəsəbəsi daxil olmaqla, Füzuli rayonunun 20-yə yaxın yaşayış məntəqəsini azad edib.

Azərbaycan hərbi aviasiyasının fevral-mart aylarında Ağdam və Tərtər istiqamətində həyata keçirdiyi hava dəstəyi nəticəsində Ermənistan ordusunun əsas ehtiyat qüvvələri məhv edilib. Məhz bundan sonra Rusiyanın işə qarışması ilə atəşkəsin imzalanmasına dair danışıqlara start verilib.

Azərbaycan və Ermənistan arasında atəşkəs müqaviləsinin imzalanması ilə bağlı təkliflə 1994-cü il mayın 4-də Rusiya çıxış edib. Qırğızıstanın paytaxtı Bişkekdə MDB Parlamentlərarası Assambleyasının (MDB PA) iclasında Rusiya atəşkəs haqqında sazişin layihəsini tərəflərə təqdim etsə də, Ermənistan–Azərbaycan danışıqları nəticə verməyib. Əsas fikir ayrılığı protokolda Azərbaycan və Ermənistanla yanaşı, Dağlıq Qarabağın erməni icmasına da bərabər tərəf kimi yer ayrılması olub.

Rusiyanın layihəsinə görə, Ermənistan və Azərbaycanın birinci şəxsləri atəşkəs sazişinin ardınca hazırlanacaq "Böyük sülh sazişi"nə imza atmalı idilər.

Tərəflər arasında atəşkəsin əldə edilməsi barədə imzalanmış "Bişkek protokolu" mayın 12-də qüvvəyə minib və cəbhə xəttində aktiv hərbi əməliyyatlar həmin gündən dayandırılıb.

**63** *1994-cü il 20 sentyabr*

## "Əsrin müqaviləsi"nin imzalanması

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalanıb. Müqavilə öz tarixi, siyasi, iqtisadi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmışdı.

"Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılıb və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlanılıb. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 32 sazişin imzalanması üçün yol açıb.

"Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olub. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları məbləğində sərmayənin 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilib.

**64** ***1994-cü il 26 sentyabr***

## Azərbaycan və ABŞ prezidentlərinin ilk görüşü

1994-cü il sentyabrın 26-da Nyu-Yorkda səfərdə olan Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonla görüşüb. Bu, Azərbaycan və ABŞ prezidentləri arasında ilk görüş kimi tarixə düşüb.

Səfərin nəticələrinə dair mətbuat konfransında Heydər Əliyev görüş haqqında bunları deyib: *"Bizim çox ətraflı və səmərəli söhbətimiz oldu. Bu, Azərbaycan Prezidentinin ABŞ Prezidenti ilə ilk görüşü idi. Mən cənab Prezident Bill Klinton tərəfindən Azərbaycanın və bütün bölgəmizin problemlərinə böyük maraq göstərildiyini hiss etdim. Ermənistan ilə Azərbaycan arasında münaqişənin aradan qaldırılması və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətdən çıxmaq yolları barədə prinsiplərimizi, mülahizələrimizi və fikirlərimizi ona izah etmək imkanı tapdım".*

**65** ***1994-cü il 29 sentyabr***

## BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı

1994-cü ilin sentyabrında ümummilli lider Heydər Əliyev BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-də səfərdə olub, Azərbaycanın tarixində ilk dəfə olaraq BMT-nin yüksək tribunasından proqram xarakterli nitq söyləyib.

Dünya ictimaiyyətinin ən geniş dairələrində böyük əks-səda doğurmuş həmin nitqində ümummilli lider Heydər Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində BMT-nin rolunun vacibliyini qeyd edib.

Ulu Öndər BMT-nin qərarlarının yerinə yetirilməməsinin təşkilata inamı sarsıdacağını vurğulayıb: *"Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir? Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər"*.

**66** ***1994-cü il 30 sentyabr***

## Afiyəddin Cəlilov və Şəmsi Rəhimovun qətli ilə əlaqədar bəyanatı

1994-cü il sentyabrın 29-da iki terror aktı törədilib, Ali Sovet sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirilib. Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qətlə yetirilməsi dövlət çevrilişinə hazırlığın növbəti addımı idi.

Həmin günlər ABŞ-də səfərdə olan Heydər Əliyev sentyabrın 30-da Afiyəddin Cəlilov və Şəmsi Rəhimovun vəhşicəsinə qətlə yetirilməsi ilə əlaqədar bəyanat verərək, bu terror aktını son vaxtlar Azərbaycanın müstəqilliyi əleyhinə yönəlmiş cəhdlərin yeni bir dalğası kimi xarakterizə edib.

**67** ***1994-cü il 4 oktyabr***

## Dövlət çevrilişinə cəhd

1994-cü il oktyabrın 2-də Surət Hüseynovun qanunsuz yaratdığı silahlı dəstələr, onun göstərişi əsasında Gəncə şəhərində icra

hakimiyyətini, hüquq mühafizə orqanlarını, dövlət əhəmiyyətli obyektləri ələ keçiriblər və bunu digər rayonlarda davam etdirməyə çalışıblar.

Ümummilli Lider ABŞ-dən Bakıya qayıdanda hadisələr kritik həddə cərəyan edirdi. Xətai rayonunun prokuroru Mahir Cavadov qardaşı Rövşən Cavadovun komandanlığı altında olan Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup silahlısı ilə Respublika Prokurorluğuna basqın etmişdi.

Oktyabrın 4-də ümummilli liderimiz Heydər Əliyev dünyanın bütün dövlətlərinə, hökumətlərinə və beynəlxalq təşkilatlara müraciət edərək, birbaşa xaricdən yönəldilən qüvvələrin silahlı qiyam yolu ilə dövlət çevrilişi etməyə cəhd göstərdiklərini bildirib, onları ölkənin müstəqillik və suverenliyini qorumaq, zorakılıq və irticanın təntənəsinə yol verməmək naminə bütün imkanlardan istifadə etməyə çağırıb.

Oktyabrın 4-də Ulu Öndər xalqa müraciət edib. Bu müraciətə cavab olaraq oktyabrın 4-dən 5-nə keçən gecə Prezident sarayının qarşısında başlanan və on minlərlə insanın iştirak etdiyi möhtəşəm mitinq səhərədək davam edib. Oktyabrın 5-də gündüz Azadlıq meydanında bir milyona yaxın insanın iştirak etdiyi ümumrespublika mitinqi keçirilib.

Heydər Əliyev bircə güllə belə atılmadan qiyamın qarşısını siyasi gedişləri ilə alıb: çevrilişə cəhdin əsas siması – Baş nazir Surət Hüseynov 1994-cü il oktyabrın 6-da Milli Məclis üzvlüyündən, oktyabrın 7-də isə Baş nazir vəzifəsindən uzaqlaşdırılıb. Parlament keçmiş Baş nazirə qarşı cinayət işinin qaldırılması, barəsində həbs qətimkan tədbiri seçilməsinə razılıq verilməsi və "Azərbaycan Milli Qəhrəmanı" adından məhrum edilməsinin tövsiyə olunması haqqında qərar qəbul edib.

Oktyabrın 30-da Surət Hüseynov "Azərbaycanın Milli Qəhrəmanı" adından məhrum edilib. Həbs olunan Hüseynov az sonra naməlum şəxslər tərəfindən qaçırılıb. Tezliklə o, Rusiyada peyda olub. Lakin az sonra S.Hüseynov həbs edilərək, Bakıya təhvil verilib.

**68** *1994-cü il 18-19 oktyabr*

## Türk dövlətləri başçılarının II zirvə toplantısı

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il oktyabrın 18-də Türk dövlətləri başçılarının ikinci zirvə toplantısında iştirak edib. Görüşün nəticəsi olaraq toplantı iştirakçılarının birgə bəyannaməsi imzalanıb. Sənədi Türkiyə Prezidenti Süleyman Dəmirəl, Azərbaycan Prezidenti Heydər Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Qırğızıstan Prezidenti Əsgər Akayev imzalayıblar.

İstanbul bəyannaməsində altı türkdilli dövlətin iqtisadi əməkdaşlığı, mədəni əlaqələri daha da inkişaf etdirmək üçün səylərini davam etdirmək əzmi öz əksini tapıb.

Türkdilli dövlətlərin üçüncü zirvə toplantısının 1995-ci ilin avqust ayında Bişkekdə keçirilməsi barədə razılıq əldə edilib.

**69** *1994-cü il 29 oktyabr*

## BMT baş katibinin Azərbaycana ilk səfəri

1994-cü il oktyabrın 29-da BMT-nin baş katibi Butros Butros Qali Azərbaycana səfərə gəlib. Səfər yenicə müstəqillik əldə etmiş Azərbaycanla bu beynəlxalq qurum arasında əməkdaşlığın inkişafına böyük təkan verib.

Ümummilli lider Heydər Əliyev BMT-nin baş katibi ilə görüşdə Azərbaycanın təşkilatdan gözləntilərini dilə gətirib: *"Bizim məqsədimiz böyük sülh yaratmaqdır, müharibəyə tamamilə son qoymaqdan ibarətdir. Şübhəsiz ki, burada bizim öz şərtlərimiz var. Şərtlər də ondan*

*ibarətdir ki, böyük sülh yaratmaq və müharibəyə tamamilə son qoymaq üçün Ermənistan işğalçı hərbi hissələri Azərbaycan torpaqlarından çıxmalıdır. Məsələni bu cür qoyarkən biz belə hesab edirik ki, birinci mərhələdə erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxmalıdır. Dağlıq Qarabağ haqqında məsələ ikinci mərhələdə həll olunmalıdır. İşğal olunan ərazilər azad edilərkən qaçqınlar öz yerlərinə qayıtmalıdır".*

**70** ***1995-ci il mart***

## Respublikada növbəti dövlət çevrilişi cəhdi

1995-ci il martın 13-17-də Azərbaycanda ikinci dövlət çevrilişi cəhdi baş verib.

Dövlət çevrilişinə cəhd 1995-ci ilin mart ayının 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar nöqtəsində – Qazaxda və Ağstafada başladı. Həmin gün "OMON"un Ağstafa və Qazax rayonunda yerləşən bölməsi tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edilib.

Hər iki rayonda dövlət əleyhinə faktiki qiyam baş verir. Qiyamçılar dövlət əhəmiyyətli binaları ələ keçiriblər.

Çevrilişdə əsas rolu, Rövşən və Mahir Cavadov qardaşları başda olmaqla, Xüsusi Təyinatlı Polis Dəstəsi oynayıb. Dövlət çevrilişi cəhdinin qarşısını sülh yolu ilə almaq cəhdləri qiyamçıların çağırışlara rədd cavab verməsi üzündən baş tutmayıb. Qətiyyətli tədbirlər nəticəsində martın 17-də dövlət çevrilişi cəhdinin qarşısı alınıb.

Beləliklə də, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı müstəqil dövlət quruculuğu yolundan döndərmək mümkün olmayıb. Bu hadisədən sonra dövlət çevrilişi tərəfdarları bir daha baş qaldıra bilməyiblər.

**71** *1995-ci il*

## Azərbaycan Prezidentinə qarşı sui-qəsd cəhdləri

1995-ci il iyulun 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə qarşı sui-qəsd təşkil edilib. Prezident xarici səfərlərdən birindən geri dönərkən onun təyyarəsinin vurulmasına cəhd olunub. Lakin sui-qəsd xoşbəxtlikdən baş tutmayıb.

Hadisədən öncə, mayın 26-da Azərbaycan Milli Ordusuna məxsus bölmələrdən birində "İqla-1" zenit raketi oğurlanıb, onun Prezidentin təyyarəsinə tuşlanacaq yeri müəyyən edilib. Xoşbəxtlikdən Prezidentin təyyarəsi hava limanına çevrilişi həyata keçirmək istəyənlərin nəzərdə tutduğu istiqamətdə eniş etməyib. Hava şəraiti ucbatından eniş istiqaməti dəyişdirilib və nəticədə Prezidentə sui-qəsd cəhdi baş tutmayıb.

Sui-qəsddən dərhal sonra planın müəlliflərinin Azərbaycan Respublikası müdafiə nazirinin sabiq müavinləri – Şahin Musayev, Vahid Musayev, həmçinin nazirliyin Hərbi Ticarət İdarəsinin sabiq rəisi Hacımurad Sadəddinov, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin ləğv edilmiş XTPD-nin (Xüsusi Təyinatlı Polis Dəstəsi) sabiq əməkdaşı Faiq Baxşəliyev olduğu müəyyən edilib. Aparılan əməliyyat nəticəsində 1995-ci ilin avqustunda Vahid Musayev və Faiq Baxşəliyev həbs ediliblər.

1995-ci ilin məlum mart hadisələrindən sonra qaçıb gizlənən Mahir Cavadov və onun cinayətkar ətrafı yeni terror aktına cəhd göstəriblər. Mahir Cavadov Azərbaycan Respublikasının Prezidentinə qarşı terror aktı həyata keçirmək üçün keçmiş omonçular Yaşar Məmmədov və Baba Əkbərovu Bakı şəhərinə göndərib. Onlar Sabunçu körpüsü altında yerləşdirilmiş böyük partlayıcı gücə malik iki ədəd qurğunu prezident korteji körpüdən keçərkən partlatmalı idilər.

Azərbaycan hüquq-mühafizə orqanları və təhlükəsizlik strukturları tərəfindən sui-qəsd cəhdinin qarşısı alınıb.

**72** *1995-ci il 29 sentyabr*

## "Azərbaycan Respublikasında 1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın təsdiqi

Ümummilli lider Heydər Əliyev 1995-ci ilin yanvarında özəlləşdirmənin aparılması üçün yaradılan dövlət qurumunun rəhbərliyində dəyişikliklər edib. 3 mart 1995-ci ildə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında proqramın hazırlanması üçün xüsusi komissiya yaradılmasına göstəriş verib. Komissiya 1995–1998-ci illərdə özəlləşdirmənin aparılması üçün müvafiq sənəd hazırlamalı idi.

Bütün bu məsələlər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ilin martında Bakıda keçirilən hökumətin açıq müşavirəsinə çıxarılıb.

1995-ci ilin iyununda hazır olan sənəd əvvəlcə Azərbaycan Prezidentinə təqdim olunub, onu qənaətbəxş hesab edən dövlət başçısı iyunun 30-da təsdiq edilmək üçün Milli Məclisə göndərib. 1995-ci il iyulun 21-də sənəd Milli Məclis tərəfindən bəyənilərək qəbul edilib.

1995–1998-ci illərdə özəlləşdirmənin aparılmasını nəzərdə tutan proqram dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını əks etdirirdi. Dövlət Proqramında mülkiyyətin özəlləşdirilməsi sahələri, istiqamətləri, müddəti, mərhələləri və digər məsələlər öz əksini tapmışdı. 1995-ci il sentyabrın 29-da "Azərbaycan Respublikasında 1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq olunub.

2000-ci ildə dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edən "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" yeni qanun qüvvəyə minib.

**73** *1995-ci il 12 noyabr*

## Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu və ilk parlament seçkiləri

1995-ci ilin iyulunda ulu öndər Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edilib. 1995-ci il iyunun 5-də Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclası keçirilib.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilib. 1995-ci il noyabrın 27-dən qüvvəyə minib.

Ulu öndər Heydər Əliyev bu barədə danışarkən deyirdi: *"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".*

1995-ci ilin 12 noyabrında yeni Konstitusiyanın qəbulunun ümumxalq referendumuna çıxarılması ilə paralel şəkildə Azərbaycan Respublikası Milli Məclisinə ilk demokratik seçkilər keçirilib. 1995-ci il noyabrın 24-də Heydər Əliyev Azərbaycan Respublikasının birinci çağırış Milli Məclisinin ilk iclasında nitq söyləyib.

1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclisdə qəbul edilmiş 1715 qanun və qərardan 975-i məhz ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunub.

**74** *1996-cı il 2 fevral*

## Azərbaycan Respublikası Gənclərinin I forumu

Ümummilli lider Heydər Əliyev Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun gənc nəslin tərbiyəsi, gənclərlə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaradıb. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başlanıb.

Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alınıb. Forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırılıb.

1997-ci il fevralın 1-də forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev 2 fevral – Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi qeyd olunur.

**75** *1996-cı il 6 iyul*

## Bakı Televiziya qülləsinin tikintisi

Bakı Televiziya Qülləsi Kompleksi SSRİ Nazirlər Sovetinin qərarı və Azərbaycan SSR Rabitə Nazirliyinin sifarişi əsasında layihələşdirilmişdi. Tikinti işləri 1979-cu ildə başlanmış və 1985-ci ildə tamamlanmalı idi.

Binanın forması və xarici görünüşü üzərində bir çox memarlar, mühəndislər baş sındırmalı olublar. Lakin sonda, 1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik yeni teleqüllənin layihəsi təsdiq edilib.

Binanın layihəsini Ümummilli Lider təklif olunan 3 layihə içərisindən şəxsən seçib. Binanın təməlini 1980-ci ildə fəaliyyət göstərən Tikinti Nazirliyinin 4 nömrəli tresti qoyub.

Ümummilli lider Heydər Əliyevin müvafiq göstərişləri əsasında qüllənin tikintisinə yenidən müstəqillik dövründə 1993-cü ildə başlanıb və 1996-cı ildə kompleksin rəsmi açılış mərasimi keçirilib.

**76** ***1996-cı il 16 iyul***

## "Torpaq islahatı haqqında" qanunun qəbulu

1996-cı il iyulun 12-də ümummilli lider Heydər Əliyev aqrar islahatlar layihəsinin müzakirəsinə həsr olunmuş iclasda çıxış edərək, islahatların məqsədi və əsas istiqamətləri barədə fikirlərini bildirib. İyulun 16-da "Torpaq islahatı haqqında" qanunun təsdiq edilməsi haqqında fərman imzalayıb.

Torpaq islahatları nəticəsində respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, onların əkinəyararlı münbit torpaqları əhaliyə paylanıb. Torpaq payı almaq hüququ olan 870 min ailəyə torpaq payı verilib.

Azərbaycanın vahid torpaq fondunu təşkil edən 8 641 506 hektar torpaq sahəsindən 56,9 faizi dövlət mülkiyyətində saxlanılıb. 23,5 faizi bələdiyyə mülkiyyətinə verilib, 19,6 faizi isə xüsusi mülkiyyətə ayrılıb.

**77** ***1996-cı il 2-4 dekabr***

## ATƏT-in Lissabon sammiti

1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirilib. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu məhz bu görüşdə müəyyən edilib.

Ümummilli lider Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın mövqeyinin dünya birliyi tərəfindən müdafiə olunmasına nail olub. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəkləyib: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi. ATƏT-ə üzv dövlətləri arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət Ermənistan olub. Yəni Ermənistan konsensus prinsipindən sui-istifadə edərək zirvə toplantısının bəyannaməsində öz əksini tapmış müddəalardan birinə – münaqişənin həlli prinsiplərini özündə ehtiva edən 20-ci maddəyə veto qoyub. Ulu Öndər Heydər Əliyev isə həmin maddənin bəyanatın mətnindən çıxarılmasına qəti etirazını bildirərək sammitin bütün sənədlərinə veto qoyacağını bəyan edib. Uzun və gərgin müzakirələrdən sonra 20-ci maddədə öz əksini tapmış bütün prinsiplərin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatında təsbit olunması barədə konsensus əldə edilib.

Bununla da münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlarda dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən hüquqi bünövrə yaradılıb və vasitəçilərin vəzifələri müəyyən olunub.

**78** *1997-ci il 20 aprel*

## "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi

Ulu öndər Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar fərman imzalayıb. Üç il müddətində yubiley çərçivəsində görülən işləri elmi, ictimai, siyasi və bədii nöqteyi-nəzərdən yüksək qiymətləndirən Ümummilli Lider "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşrini böyük nailiyyət adlandırıb.

Yubiley çərçivəsində elmi, ictimai, siyasi və bədii nöqteyi-nəzərdən böyük işlər görülüb, "Kitabi-Dədə Qorqud" ensiklopediyası nəşr edilib. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar YUNESKO çərçivəsində Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində yubiley tədbirləri təşkil olunub.

Yubiley tədbirləri 2000-ci ilin aprelində Bakıda Türkdilli Dövlətlər Birliyinin VI zirvə toplantısına dəvət olunmuş dövlət başçılarının iştirakı ilə keçirilmiş təntənəli yubiley mərasimi ilə başa çatıb.

**79** *1997-ci il 12 noyabr*

## "Çıraq-1" platformasında ilkin neftin hasilatı

1997-ci il noyabrın əvvəlində Xəzərin Azərbaycan sektorundakı "Çıraq" platformasından ilkin neft çıxarılıb. Dünyanın istənilən neft-qaz regionunda hər bir karbohidrogen yatağından hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır və mühüm hadisə sayılır.

Azərbaycan üçün "Çıraq"dan ilkin neftin çıxarılması daha böyük önəm kəsb edirdi. Çünki bu, həmin vaxt iqtisadi durumu çox

zəif olan ölkəmizin dirçəlişinə və böyük gələcəyinə hesablanmış "Əsrin müqaviləsi" çərçivəsində hasil edilən ilk neft idi.

Noyabrın 12-də ulu öndər Heydər Əliyev platformaya gəlib. Burada "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi tərəfdaşları nümayəndələrinin, xarici ölkələrdən gəlmiş nüfuzlu qonaqların iştirakı ilə təntənəli tədbir keçirilib. Beləliklə, çətin sınaqlardan keçmiş qlobal layihə – "Əsrin müqaviləsi" reallığa çevrilib.

**80** ***1998-ci il 10 fevral***

## Azərbaycanda ölüm hökmünün ləğvi

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Konstitusiyada ölüm hökmü cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdı.

1996-cı ilin mayında Milli Məclis Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən çox olanların ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul edib, həmçinin ölüm cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilib.

1998-ci il yanvarın 22-də Heydər Əliyevin ölüm hökmünün ləğvi ilə bağlı Milli Məclisə qanunvericilik təşəbbüsü ilə təqdimatı cinayət-hüquq siyasəti prizmasından müzakirə edilib.

1998-ci il fevralın 10-da ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallar rəhbər tutularaq ölüm cəzasının ləğv edilməsi haqqında tarixi qərar qəbul edilib. Beləliklə, 1998-ci ildə həm Şərqdə, həm də MDB məkanında ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilib.

**81** *1998-ci il 6 avqust*

## Mətbuat üzərində senzuranın ləğvi

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə gəlməsindən sonra bütün sahələrdə olduğu kimi, mətbuatda da əsaslı və müsbət dəyişikliklər baş verib.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 6 avqust tarixində imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanla Mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilib. Beləliklə də, mətbuat üzərində illər boyu mövcud olan senzura aradan qaldırılıb.

Senzuranın ləğvi Azərbaycan mətbuatının inkişafı üçün yeni imkanlar açıb. Media nümayəndələrinin sərbəst fəaliyyət göstərməsi və maneəsiz informasiya toplaması üçün lazımi hüquqi-normativ baza formalaşdırılıb.

**82** *1998-ci il 10 oktyabr*

## Bakıda Şəhidlər xiyabanında "Əbədi məşəl" abidəsinin açılışı

"Əbədi məşəl" abidə kompleksinin yaradılması fikri ilk dəfə 1994-cü ildə irəli sürülüb. Milli Məclisdə bu faciəyə qiymət verilərkən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün abidə yaradılması qərarı qəbul olunub.

Ümummilli Lider bu məsələni şəxsi diqqətində saxlayıb, yaradılmış komissiyaya tapşırıq və tövsiyələrini verib. Memar və hey-

kəltaraşlara öz təsirliliyinə, məzmununa, səviyyəsinə görə böyük həcmli əsərdən də çox qiymətli olacaq bir abidə yaratmağı tapşırıb. Yaradılacaq abidə faciəni də, xalqın qəhrəmanlığını da, təcavüzü də əks etdirməli idi. Keçirilən müsabiqədə Əməkdar memar Elbay Qasımzadənin işləyib hazırladığı layihə seçilib.

Ümummilli lider Heydər Əliyev 5 avqust 1998-ci il tarixində Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması haqqında sərəncam verib. Kompleksin açılışı 9 oktyabr 1998-ci il tarixində baş tutub.

2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənilib.

**83** ***1998-ci il 11 oktyabr***

## İkinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi

1998-ci il oktyabrın 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. Ulu öndər Heydər Əliyev xalqın yüksək fəallığı şəraitində keçən seçkilərdə səslərin 76,11 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. Səsvermədə 3.358.465 seçici iştirak etmişdi ki, bu da seçici siyahılarında seçicilərin ümumi sayının 79,18 faizini təşkil edirdi.

Prezident seçkilərində 6 namizəd mübarizə aparıb. Seçkilərdə iştirak etmiş seçicilərin 2 milyon 556 min 059 nəfəri və ya 76,11 faizi ulu öndər Heydər Əliyevə səs verib. 1998-ci il oktyabrın 15-də Mərkəzi Seçki Komissiyası prezident seçkilərinə yekun vurub.

Qanunvericiliyə əsasən, seçkilərin yekun sənədləri Mərkəzi Seçki Komissiyası tərəfindən Azərbaycanın Konstitusiya Məhkəməsinə təqdim olunub və 1998-ci il oktyabrın 16-da Konstitusiya

Məhkəməsi prezident seçkilərinin yekunları haqqında məlumatı rəsmən elan edib.

Oktyabrın 18-də Prezidentin andiçmə mərasimi keçirilib.

**84** *1998-ci il 29 oktyabr*

## Ankara Bəyannaməsinin imzalanması

Azərbaycanın yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi"nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edirdi.

Ümummilli lider Heydər Əliyev bu məsələdə qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxaracaq Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri ideyasını irəli sürüb.

1998-ci il oktyabrın 29-da ulu öndər Heydər Əliyev Ankarada Türkiyə və Gürcüstanın prezidentləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşa edilməsi haqqında Bəyannaməni imzalayıb.

**85** *1999-cu il 17 aprel*

## Bakı–Supsa İxrac Boru Kəmərinin açılışı

1990-cı illərdə regionda yaşanan ciddi problemlər – Çeçenistan müharibəsi, Bakı–Novorossiysk kəmərində baş verən terror aktları neftin Qərb bazarlarına çıxarılması üçün alternativ yolların axtarılması zərurətini yaradıb.

Ulu öndər Heydər Əliyevin müdrikliyi sayəsində Qərb İxrac Boru Kəmərinin (QİBK) çəkilməsi ideyası irəli sürülüb. 1996-cı il martın 8-də ümummilli liderimiz Heydər Əliyev və Gürcüstanın ovaxtkı Prezidenti Eduard Şevardnadze Tbilisidə Bakı–Supsa neft kəmərinin çəkilməsi ilə bağlı razılığa gəliblər.

1998-ci ilin dekabrında Səngəçal terminalından vurulan xam neft 1999-cu il martın 11-də Supsa terminalına çatıb. Burada neftin çənlərə doldurulması ilə Bakı–Supsa İxrac Boru Kəmərinin fəaliyyətə başlaması üçün son hazırlıq işlərinə start verilib.

Aprelin 17-də Supsada Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə Qərb İxrac Boru Kəmərinin və Supsa terminalının rəsmi açılış mərasimi olub.

**86** *1999-cu il 12 iyul*

## "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimi

Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı 1999-cu ildə kəşf olunub. Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-500 metr arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşir. Bu yataq dünyanın iri qaz-kondensat yataqlarından biridir.

12 iyul 1999-cu ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şahdəniz" yatağı üzrə üç il ərzində görülən ilkin işlərin təqdimat mərasimi olub. İlkin nəticələrin təhlili sayəsində məlum olub ki, genişmiqyaslı hasilat prosesi zamanı yataqdan ildə 16-20 milyard kubmetr qaz çıxarılacaq. Bu isə həmin qazın satışı üçün xarici bazarların axtarılması və qaz boru kəməri marşrutunun seçilməsi məsələsini gündəmə gətirib.

Müzakirə və təhlillər nəticəsində Tükiyə Respublikası və Gürcüstan bu baxımdan əlverişli hesab edilib. Həmin ökələrin rəsmilə-

ri ilə danışıqlara başlanıb və qazın nəqlini təşkil edəcək Bakı–Tbilisi–Ərzurum marşrutunun çəkilməsi üçün razılıq əldə olunub.

"Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdıb.

**87** ***1999-cu il 21-23 avqust***

## Cenevrə danışıqları

1999-cu ilin aprelində Ermənistanla Azərbaycan arasında danışıqlar prosesinin yeni mərhələsi başlayıb. Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Koçaryan beynəlxalq toplantılarda bir araya gəliblər.

İlk görüş isə ABŞ-da aprelin 24-də NATO-nun 50 illik yubileyi ilə əlaqədar təşkil edilən sammitdə baş tutub. Görüşün əsas təşkilatçısı ABŞ dövlət katibi Madlen Olbrayt olub.

1999-cu il iyulun 16-da İsveçrənin Cenevrə şəhərindəki Jato qəsrində Azərbaycan və Ermənistan prezidentləri Heydər Əliyev və Robert Koçaryan arasında növbəti görüş keçirilib. Məhz bu görüşlə yüksək səviyyəli Qarabağ danışıqları intensiv mərhələyə keçib.

Prezidentlər səviyyəsində növbəti görüş 1999-cu il avqustun 22-də yenidən Cenevrədə baş tutub. Görüşdən sonra Qərb mediası bir sıra xarici və yerli mənbələrə istinadən böyük razılaşmanın əldə olunduğunu yazıb.

1999-cu ilin 11 oktyabrında Heydər Əliyev Sədərək rayonu ərazisində Ermənistan Prezidenti Robert Koçaryanla təkbətək görüşüb.

27 oktyabr 1999-cu ildə Ermənistan parlamenti Nairi Unanyanın rəhbərlik etdiyi bir qrup terrorçunun hücumuna məruz qalıb. Hücum nəticəsində yüksək vəzifəli şəxslərin qətlə yetirilməsi danışıqlar prosesində yenidən fasilə yaranmasına səbəb olub.

**88** *1999-cu il 18-19 noyabr*

## ATƏT-in İstanbul Zirvə görüşü

1999-cu il noyabrın 18-19-da İstanbul şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) 20-ci yüzillikdə sonuncu Zirvə görüşü keçirilib. Zirvə görüşü çərçivəsində "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" Saziş imzalanıb.

Bundan başqa, ABŞ Prezidentinin iştirakilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan Respublikası, Türkiyə Respublikası pezidentləri tərəfindən Azərbaycan Respublikasının və digər Xəzəryanı ölkələrin zəngin neft ehtiyatlarının beynəlxalq bazarlara uğurlu ixracının təşkil edilməsi üçün başlıca mərhələ sayılan Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin qısa bir müddət ərzində həyata keçirilməsinə yönəlmiş İstanbul Bəyannaməsi imzalanıb.

2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı–Tbilisi–Ceyhan kəmərinin inşasına başlanılıb. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutub.

2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilib və boru xəttinə ilk neft vurulub. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilib. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınıb.

## 89 *2000-ci il 8-9 aprel*

## Türkdilli ölkələrin dövlət başçılarının VI zirvə görüşü

Türkdilli dövlət başçılarının zirvə görüşlərinin əsası 1992-ci ildə Türkiyə Respublikasının paytaxtı Ankarada qoyulub. İstanbulda, Bişkekdə, Daşkənddə, Astanada davam etdirilən görüşlərin müntəzəm keçirilməsi ənənəyə çevrilib.

2000-ci ilin aprelində Bakıda Türkdilli ölkələrin dövlət başçılarının VI zirvə görüşü keçirilib. "Gülüstan" sarayında Türkdilli ölkələrin dövlət başçılarının VI zirvə görüşünün Bakı bəyannaməsi imzalanıb. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu regional layihələr türk xalqlarının yaşadığı geniş coğrafiyada uzunmüddətli inkişaf və əməkdaşlığa meydan açıb.

Ulu öndər Heydər Əliyevin 2001-ci ildə iştirak etdiyi türk zirvəsində (27 aprel 2001-ci il, İstanbul) bəyan etdiyi bu sözləri isə 21-ci yüzilliyin türk dünyası üçün vəsiyyət kimi qəbul etmək olar: *"Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin – milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq".*

**90** *2000-ci il 4-12 sentyabr*

## Minilliyin Zirvə görüşü

2000-ci il 4-12 sentyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin təşəbbüsü ilə keçirilən Minilliyin Zirvə görüşündə iştirak edib. 193 ölkənin dövlət və hökumət başçılarının qatıldığı Zirvə görüşünün açılış mərasimi 6 sentyabrda olub.

Ümummilli lider Heydər Əliyev Minilliyin Zirvə görüşündə çıxış edib və BMT baş qərargahında növbəti əsrdə ümumbəşəri inkişafın perspektivlərini özündə əks etdirən "XX əsrə baxış" adlı bəyannaməni imzalayıb.

Prezident Heydər Əliyevin BMT-nin təşəbbüsü ilə keçirilən Minilliyin Zirvə görüşündə çıxışından: *"Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, Birləşmiş Millətlər Təşkilatı ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli tədbirlər görəcəkdir.*

*Təəssüflər olsun ki, Cənubi Qafqaz həmin problemlərin, hədələrin və risklərin aydın şəkildə təzahür etdiyi regiona çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü – milyonlarla insana saysız-hesabsız fəlakətlər gətirmiş təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amil olmuşdur".*

**91** *2000-ci il 17 oktyabr*

## Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri haqqında sazişlərin imzalanması

1999-cu il noyabr ayının 18-də İstanbulda keçirilən Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) konfransında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin ozamankı prezidentləri Eduard Şevardnadze və Süleyman Dəmirəlin iştirakı ilə "Xam Neftin Bakı–Tbilisi–Ceyhan Magistral İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən nəql edilməsi" haqqında saziş imzalanmışdı.

Azərbaycan, Türkiyə və Gürcüstan arasında texniki, kommersiya məsələləri barəsində razılıqlar əldə edildikdən sonra, Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlər tərəfindən birlikdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında kommersiya-texniki sazişlər hazırlanıb.

Razılaşmalar hər üç ölkə tərəfindən imzalanaraq qüvvəyə minib və beləliklə də, BTC-nin tikintisi ilə bağlı bütün hüquqi prosedurlar yekunlaşıb. 2000-ci ilin oktyabrında Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri haqqında sazişlər imzalanıb.

BTC neft kəməri Azərbaycan neftinin Xəzər dənizindən Turkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqlini həyata keçirir. Uzunluğu 1768 km olan BTC yeni minilliyin çox böyük mühəndis-texniki cəhdlərindən biri hesab olunur.

BTC boru kəməri Bakı–Tbilisi–Ceyhan Boru Kəməri Şirkəti (BTC Co) tərəfindən tikilib.

**92** *2001-ci il 23-27 yanvar*

## Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması

1998-ci il yanvarın 20-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il oktyabrın 21-də "Avropa Şurasında Azərbaycan Respublikasının təmsilçiliyinin təşkilati təminatı haqqında" sərəncamları imzalayıb.

2000-ci il iyunun 26-28-də AŞPA-nın növbəti sessiyasında Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verilib. Avropa Şurası Nazirlər Komitəsinin 2000-ci il noyabrın 7-9-da keçirilən sessiyasında "Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsi" adlı 14 saylı qətnamə qəbul edilib. Nəhayət, 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilib.

2001-ci il yanvarın 25-də Prezident Heydər Əliyevin iştirakı ilə Strasburqda Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilib və qurumun binasının qarşısında dövlətimizin bayrağı ucaldılıb.

2001-ci il aprelin 24-27-də Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti İlham Əliyevin rəhbərliyi ilə ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak edib.

**93** *2001-ci il 23-24 fevral*

## Milli Məclisdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi

2001-ci il fevralın 23-də Milli Məclisdə ölkə rəhbərliyinin, siyasi qüvvələrin, politoloqların iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinə dair açıq müzakirələr başlanıb. İki gün sürən müzakirələrin yekunu olaraq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyündən kənarda həll yolunun olmadığı bir daha vurğulanıb.

Müzakirələrin yekunu olaraq Milli Məclisdə 6 bənddən ibarət qərar qəbul olunub. Qərarda münaqişənin qarşılıqlı kompromislər yolu ilə nizama salınmasının zəruriliyi göstərilib. Birləşmiş Millətlər Təşkilatının baş katibinə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının sədrinə, ATƏT-in fəaliyyətdə olan sədrinə, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin dövlət başçılarına Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasına kömək göstərilməsi üçün səylərini artırmaq barəsində Azərbaycan Respublikası Milli Məclisinin müraciətlərinin göndərilməsi qərara alınıb.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün Azərbaycan Respublikası Milli Məclisinin iclasında irəli sürülmüş təkliflər nəzərə alınaraq, çıxış etmək imkanı olmayan deputatlara, habelə siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına, bütövlükdə ictimaiyyətin nümayəndələrinə təkliflərini 15 gün müddətində Milli Məclisin Aparatına təqdim etmək tövsiyə edilib.

**94** *2001-ci il 3-6 aprel*

## Ki-Uest danışıqları

2001-ci il 3 aprel tarixində ABŞ-nin Ki-Uest şəhərində ilk dəfə olaraq, ABŞ-ın Dövlət katibi Kolin Pauellin vasitəçiliyi ilə ATƏT-in Minsk qrupunun həmsədrləri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın birgə görüşü olub.

Görüşdə çıxış edən Heydər Əliyev Azərbaycan torpaqlarının hələ də təcavüz altında olduğunu xatırladaraq, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin həyata keçirilmədiyini söyləyib.

Minsk qrupunun münaqişənin tənzimlənməsinə dair verdiyi təkliflərdən birinin Azərbaycan, digər ikisinin isə Ermənistan Respublikası tərəfindən qəbul olunmadığını qeyd edib. Azərbaycan tərəfindən qəbul olunmayan "ümumi dövlət" təklifinin beynəlxalq hüququn prinsip və normalarına zidd olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirdiyini bildirib.

Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək səviyyəli muxtariyyət verilə biləcəyini deyib. Azərbaycanın hər bir zaman sülh tərəfdarı olduğunu və 1994-cü ilin may ayında əldə edilmiş atəşkəs rejiminə sadiq olduğunu bildirən Heydər Əliyev, Ermənistan ilə Azərbaycan arasında münaqişənin bütövlükdə Cənubi Qafqazda sabitliyi pozduğunu qeyd edib.

Ki-Uest görüşü danışıqlar prosesində yeni mərhələ kimi səciyyələndirilsə də, Ermənistan rəhbərliyinin növbəti dəfə qeyri-konstruktiv mövqe sərgiləməsi üzündən nəticəsiz qalıb.

**95** ***2001-ci il 1 avqust***

## Latın qrafikalı əlifbaya keçid

Ümummilli lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanına əsasən, 2001-ci ilin 1 avqustunda ölkə ərazisində bütün idarə-müəssisələr, təşkilatlar, Azərbaycan dilində bütün nəşrlər latın qrafikalı əlifbaya keçib. Azərbaycanda bütün media və kütləvi nəşrlərin latın qrafikalı əlifbaya keçməsi rəsmiləşdirilib, latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırılıb.

2001-ci il avqustun 9-da ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzalanıb. Beləliklə də, 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilib.

**96** ***2001-ci il 9-10 noyabr***

## Dünya Azərbaycanlılarının I Qurultayı

2001-ci ilin may ayının 23-də ümummilli lider Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi üçün Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında sərəncam imzalayıb.

Həmin ilin noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir pro-

sesin başlanğıcı kimi daxil olub. I qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edib.

Qurultay dünya azərbaycanlılarının həmrəliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilib.

**97** ***2002-ci il 22-23 may***

## Roma Papasının Azərbaycana ilk rəsmi səfəri

2002-ci il mayın 22-də Vatikan dövlətinin başçısı, 264-cü Roma Papası II İohann Pavel ilk dəfə olaraq Azərbaycana rəsmi səfərə gəlib.

Ümummilli lider Heydər Əliyev onun qarşılanma mərasimindəki nitqində Vatikan rəhbərini dinindən, dilindən və irqindən asılı olmayaraq bütün bəşəriyyətin dostu, dünya vətəndaşı adlandırıb. Azərbaycanın dövlət başçısı II İohann Pavelin müsəlman ölkələrinə səfərlərinin xristian və islam dinləri arasında qarşılıqlı etimadın və hörmətin gücləndirilməsinə xidmət etdiyini bildirib.

II İohann Pavel çıxışında Azərbaycanda dinlər arasında dözümlülüyün və qarşılıqlı anlaşmanın mövcud olmasını fəxr etməli hal kimi qiymətləndirib. Roma Papası Azərbaycanın Şərq və Qərb arasında qapı olmasını bir daha təsdiqləyib.

Vatikanın dövlət başçısı Bakıya səfəri zamanı Azərbaycanın katolik icmasının keçirdiyi mərasimdə iştirak edib. Heydər Əliyev II İohann Pavelin diqqətinə Ermənistanın Azərbaycana təcavüzü məsələsini və bu təcavüz qurbanlarının ehtiyaclarını çatdırıb: *“Siz insanlar arasında şəfqət və rəhmdillik ideyaları təbliğ edir, ağır fəlakətə düşənlərə səbir və təsəlli diləyirsiniz. Azərbaycanda da belə fəlakət qurbanları var. Onlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi*

*nəticəsində öz yurd-yuvalarını itirmiş bir milyondan çox azərbaycanlı qaçqınlardır. Bu insanlar Sizin xeyirxah sözünüzə, təsəllinizə ehtiyac duyurlar. Onlar haqqın öz yerini tutmasında Sizdən də kömək umurlar".*

**98** ***2002-ci il 24 avqust***

## Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər haqqında referendum

Ümummilli lider Heydər Əliyevin milli qanunvericiliyimizin daha da təkmilləşdirilməsi, ölkəmizin Avro-Atlantik məkana inteqrasiyasını daha da sürətləndirmək məqsədi ilə 2002-ci il iyunun 22-də imzaladığı Fərmanla Konstitusiyada dəyişikliklər edilməsi haqqında referendum aktının layihəsini ümumxalq səsverməsinə çıxarıb. Bu addım ilk növbədə dövlətçiliyimizin, demokratik norma və prinsiplərin daha da möhkəmləndirilməsinə yönəlmişdi.

2002-ci il avqustun 24-də əhalinin böyük əksəriyyəti Konstitusiya dəyişikliklərinin lehinə səs verib. Konstitusiyanın müəyyən maddələrinə edilmiş əlavə və dəyişikliklərə əsasən vətəndaşların Ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ təmin edilib, həmçinin Milli Məclisin səlahiyyətləri dəqiqləşdirilərək ona Ombudsmanın seçilməsi, Apellyasiya Məhkəməsinə hakimlərin təyin olunması hüququ verilib.

Bu dəyişikliklərin bir qrupu məhkəmə hakimiyyətinin rolunun artırılması, prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi ilə bağlı idi.

**99** ***2002-ci il 18 sentyabr***

## Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin təməlinin qoyulması

2002-ci il sentyabrın 18-də Bakıda – Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin təməli qoyulub. Bununla da, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan Bakı–Tbilisi–Ceyhan layihəsinin reallığa çevrilməsinə başlanılıb.

2003-cü ilin fevral ayında Bakı yaxınlığındakı Səngəçal terminalında kəmərin tikintisinə başlanılıb. 2004-cü ilin oktyabrında BTC-nin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirilib. BTC-nin Gürcüstan hissəsi 2005-ci ilin oktyabrında istifadəyə verilib.

Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin inşası yalnız Heydər Əliyevin siyasi qətiyyəti nəticəsində mümkün olub. Əsas ixrac boru kəməri Azərbaycan neftinin Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan terminalı vasitəsilə dünya bazarlarına çatdırılmasını təmin edir.

Hazırda Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri adlanır.

**100** *2003-cü il 1 oktyabr*

## Azərbaycan xalqına müraciəti

2003-cü il iyulun 19-da Mərkəzi Seçki Komissiyası ulu öndər Heydər Əliyevin prezidentliyə namizədliyini qeydə alıb.

2003-cü il avqustun 4-də ulu öndər Heydər Əliyev Milli Məclisə müraciət göndərərək İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında məsələnin müzakirəsini tövsiyə edib.

2003-cü il avqustun 6-da müalicə və müayinəsini davam etdirmək üçün Ankaradan ABŞ-nin Klivlend şəhərinə yola düşüb.

2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək prezident seçkilərində namizədliyini özünün siyasi varisi, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Baş nazir İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan edib.

**2003-cü il dekabrın 12-də Azərbaycanın ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib.**



Heydər Əliyevin Bakıya gəlişi. 1993-cü il.



4 iyun hadisələrini araşdırmaq üçün Gəncəyə səfəri. 1993-cü il.


Milli Məclisin iclası. 1993-cü il.



Azərbaycan Respublikası Prezidentinin Andiçmə mərasimi. 1993-cü il.



Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət. 1994-cü il.



“Əsrin Müqaviləsi”nin imzalanma mərasimi. 1994-cü il.



Azərbaycan və ABŞ prezidentlərinin görüşü. 1994-cü il.



BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 1994-cü il.



Dövlət çevrilişinə cəhdlə əlaqədar ümumxalq mitinqində. 1994-cü il.



Türk Dövlətləri Başçılarının II Zirvə toplantısı. 1994-cü il.



BMT Baş katibinin Azərbaycana ilk səfəri. 1994-cü il.




ATƏT-in Lissabon sammiti. 1996-cı il.



Akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş “Elegiya” abidəsinin təqdimatı. 1997-ci il.



BMT Baş katibi Kofi Annanla görüş. Nyu York, 1997-ci il.



Heydər Əliyev Bakı Elektrotexnika Zavodunda. 1997-ci il.



“Çıraq-1” platformasında ilkin neftin hasilatı. 1997-ci il.



Dünya şöhrətli musiqiçi Mstislav Rastropoviçlə görüş. 1998-ci il.



Ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin bir qrupunun "Şöhrət" ordeni ilə təltif edilməsi mərasimindən sonra. 1998-ci il.



“İstiqlal” qazma qurğusunun istismara verilməsi. 1998-ci il.



Tarixi İpək Yolunun bərpasına dair Bakı Konfransı. 1998-ci il.



Bakı-Tbilisi-Ceyhan Əsas Neft İxrac Boru Kəmərinə dair sazişin imzalanması mərasimi. İstanbul, 1998-ci il.




Azərbaycan Respublikası Prezidentinin Andiçmə mərasimi. 1998-ci il.



Bakı-Supsa İxrac Neft Kəməri və Terminalının açılış mərasimi. 1999-cu il.


Heydər Əliyevin GUÖAM ölkələrinin başçıları ilə görüşü. Vaşinqton, 1999-cu il.


“Ümid” yaşayış massivində məcburi köçkün ailələri ilə görüş. 1999-cu il.



ATƏT-in İstanbul Zirvə görüşü. 1999-cu il.



Yenikənd Elektrik Stansiyasının işə salınması. 2000-ci il.



Minilliyin Sammitində çıxış edərkən. Nyu York, 2000-ci il.



Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması mərasimi. 2001-ci il.



Dünya azərbaycanlılarının I qurultayı. 2001-ci il.



Roma Papası II İohann Pavelin Azərbaycana səfəri. 2002-ci il.



Səngəçal, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi. 2002-ci il.


Şəkidə Olimpiya Mərkəzinin açılış mərasimi. 2002-ci il.



*Heydər Əliyev:*

“Mən ona özüm qədər
inanıram
və gələcəyinə böyük
ümidlər bəsləyirəm”.

## AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları!

Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünəməxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur. Azərbaycanlıların öz əməyi, istedadı ilə bütün sahələrdə dünya xalqları ailəsinə getdikcə daha sürətlə inteqrasiya olması indi heç kimi təəccübləndirmir.

Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq, Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənayesi modernləşir, iqtisadiyyatda qeyri-neft sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki, biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsiz, nə bir kasıb

insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn sürətlə artacaq. Azərbaycan dövləti, iş adamlarımız təkcə ölkəmizdə deyil, xarici aləmdə də ən perspektivli və gəlirli layihələrdə iştirak etmək, investisiya qoymaq imkanına və gücünə malik olacaqlar.

Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər.

Bütün bunlar asan başa gəlməmişdir. Keçən dövrdə biz Sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər anti-Azərbaycan aksiyalarının qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz.

1988-ci ildən ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizmin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990–1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı. Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik.

Buna baxmayaraq, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.

İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.

İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq.

Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.

Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bü-

tövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə də olacaq.

Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!

Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək.

Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

*Dərin hörmətlə,*

**HEYDƏR ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

*1 oktyabr 2003-cü il*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


1. Azərbaycan Milli Ensiklopediyası, “Azərbaycan” xüsusi cildi (Azərbaycan dilində). Bakı, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi – 2007
2. Azərbaycan XX əsrin və üçüncü minilliyin ayrıcında, Bakı, Yeni Nəşrlər Evi – 2001
3. Azərbaycan. Oktyabr – 94, mart – 95: Qəsd: Dövlət çevrilişi cəhdlərinin xronikası. Bakı, Azərnəşr – 1995
4. Azərbaycan nefti dünya siyasətində: 5 cilddə. Bakı, “Azərbaycan” Nəşriyyatı – 1997-1998
5. Azərbaycan Respublikası: 1991–2001, Bakı, XXI – Yeni Nəşrlər Evi – 2001
6. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1993–2013-cü illər. Bakı: Azərnəşr.
7. Əsrlərə bərabər illər – 1969-1999: Faktlar və rəqəmlər. Bakı – 1999
8. Əliyev Heydər Əlirza oğlu. Naxçıvan Ensiklopediyası. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası – 2002
9. Əliyev İ. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı, “Azərnəşr” – 1997
10. Heydər Əliyev – Ali Sovetin sədri: I, II və III cildlər: Parlament iclaslarının stenoqramları: Bakı – 2023
11. Heydər Əliyev: biblioqrafik məlumat kitabı. “Bakı Universiteti” nəşriyyatı – 2003
12. Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə: 2 hissədə. Azərbaycan Respublikası Prezidentinin Katibliyi. Bakı – 2001
13. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı / Red.: B.Nəbiyev. Bakı, “Elm” nəşriyyatı – 1998
14. Heydər Əliyev mədəni irsimizin keşiyində: 2 cilddə. Azərbaycan Respublikası Prezidentinin Katibliyi. Bakı – 2001.
15. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri. Bakı, “Təhsil” nəşriyyatı – 2011.

16. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti. (1991–2003). II hissə. Bakı – 2015
17. Qasımlı M. Heydər Əliyev– istiqlala gedən yol (1969-1987– ci illər). Bakı-2006
18. Qasımlı İ., İldırım U. Heydər Əliyev bioqrafiyası. Bakı, “Dünya” nəşriyyatı – 1998
19. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, “Təhsil” nəşriyyatı – 2002
20. Müstəqil Azərbaycan Respublikası Gənclərinin I -Forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı, Hərbi Nəşriyyat – 1996.
21. Naxçıvan: (Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunur). Bakı, “Bakı Universiteti” nəşriyyatı – 1998
22. Алиев Гейдар Алирза оглы // Большая Советская Энциклопедия: Т. 1. М.: БСЕ, Издательство “Советская Энциклопедия” – 1970
23. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı – https://president.az/
24. İşlər İdarəsi Prezident Kitabxanası – https://heydaraliyev.preslib.az/
25. Heydər Əliyev Fondunun rəsmi internet saytı – https://heydar-aliyev-foundation.org/az
26. Heydər Əliyev Mərkəzinin rəsmi internet saytı – https://heydaraliyevcenter.az/
27. Milli Məclisin rəsmi internet saytı – https://meclis.gov.az/
28. Azərbaycan Dövlət İnforimasiyma Agentliyinin elektron foto arxivi https://photo.azertag.az/archive-all
29. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin elektron bazası – https://e-qanun.az/
30. Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin internet saytı: https://aliyevheritage.org/
31. “Qarabağ Mərkəzi” layihəsinin rəsmi saytı – https://story.karabakh.center/az/heyder-eliyev-ve-1970-80-ci-illerde-qarabag-meselesi

# MÜNDƏRİCAT

**AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI** ............ **4**

**I Fəsil**

**HEYDƏR ƏLİYEVİN SOVET AZƏRBAYCANINA RƏHBƏRLİYİ DÖVRÜ (1969–1982)** ........ **7**

1969-cu il 14 iyul. Azərbaycan tarixində yeni mərhələ ........ 9

1969-cu il 1 noyabr. Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) 50 illik yubiley iclasında ana dilində nitqi ....... 10

1970-ci il 13 iyul. "Xəzərdənizneft" İstehsalat Birliyinin yaradılması ........ 11

1970-ci il 18 avqust. Kür sutəmizləyici qurğularının tikintisi ......... 12

1970-ci il 30 sentyabr. L.İ.Brejnevin Azərbaycana səfəri ........ 13

1971-ci il 19 yanvar. Gəncə şəhərində çini qablar zavodunun açılışı ..... 14

1971-ci il 19 aprel. Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi təmayüllü məktəbin açılışı ........ 14

1971-ci il 3 iyun. Azərbaycan yazıçılarının V qurultayında iştirakı ........ 16

1971-ci il 27 iyul. Ağstafaçay su anbarının inşası ........ 16

1972-ci il 6 iyun. Nəriman Nərimanovun heykəlinin açılışı ........... 17

1972-ci il 28 avqust. Sovet İttifaqının ali məktəblərinə qəbul olmuş azərbaycanlı gənclərlə görüş ........ 18

1970–76-cı illər. Bakı Metropoliteninin yeni stansiyalarının açılışı ........ 19

1972-ci il 11 dekabr. Heydər Əliyev Sarayının inşası ........ 19

1973-cü il 9 may. Mehdi Hüseynzadənin abidəsinin açılışı .......... 20

1973-cü il 13-14 sentyabr. İmadəddin Nəsiminin 600 illik yubileyinin qeyd olunması ........ 21

1973-cü il 9 oktyabr. Bakıda XXIV Beynəlxalq Astronavtika Konqresi ........ 22

1975-ci il 25 dekabr. Bakı Məişət kondisionerləri zavodunun açılışı ........ 23

1976-cı il 28 dekabr. Yuxarı Xanbulançay su anbarının tikintisi ........ 24
1976-cı il 29 dekabr. Sərsəng su anbarının tikintisi ........ 25
1977-ci il. Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsi cəhdlərinin qarşısının alınması ........ 25
1978-ci il 21 aprel. Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsi ........ 27
1979-cu il 12 yanvar. Ağdam–Xankəndi dəmir yolunun açılışı ........ 28
1979-cu il 8 may. “Gülüstan” sarayının inşası ........ 28
1980-ci il 7 may. Taqanroqda 416-cı motoatıcı diviziyanın şərəfinə ucaldılmış abidənin açılışı ........ 29
1981-ci il 8 iyul. Bakı şəhərində Kitab evinin açılışı ........ 30
1981-ci il 20 oktyabr. Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının açılışı ........ 31
1982-ci il 14 yanvar. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı ........ 32
1982-ci il 22 mart. Cəfər Cabbarlının heykəlinin açılışı ........ 33
1982-ci il 29 iyul. Şuşada Vaqif Poeziya Günlərinin təşkili ........ 34
1982-ci il 3 avqust. Şuşada Natəvanın abidəsinin açılışı ........ 35
1982-ci il 2 noyabr. Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsi ........ 36

**II Fəsil**

**HEYDƏR ƏLİYEV SSRİ RƏHBƏRLİYİNDƏ (1982–1987) ........ 37**

1982-ci il 22 noyabr. Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosuna üzv seçilməsi ........ 39
1983-cü il 4 mart. Baykal–Amur dəmiryol xəttinin tikintisi üzrə hökumət komissiyasının ilk iclası ........ 40
1983-cü il 17 iyun. İkinci dəfə Sosialist Əməyi Qəhrəmanı ........ 41
1986-cı il 31 iyul. Naxçıvanda Heydər Əliyevin büstünün açılışı ........ 42
1987-ci il 21 oktyabr. SSRİ rəhbərliyinin Heydər Əliyevə qarşı məkrli hücumları ........ 43
1988-ci il 21 sentyabr. “Literaturnaya qazeta”da Heydər Əliyevin əleyhinə “Sürəkli alqışlar” adlı məqalənin dərci ........ 44
1990-cı il 21 yanvar. 20 Yanvar faciəsinə etiraz bəyanatı ........ 45

**III Fəsil**

**HEYDƏR ƏLİYEVİN NAXÇIVANDA FƏALİYYƏT DÖVRÜ (1990–1993) .......... 47**

1990-cı il 22 iyul. Naxçıvana gəlişi .......... 49

1990-cı il 17 noyabr. Naxçıvan MSSR Ali Sovetinin I sessiyası .......... 49

1990-cı il 14 dekabr. Naxçıvan Ali Məclisində Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi .......... 50

1991-ci il 14 yanvar. SSRİ-nin saxlanılması məsələsinə münasibəti .......... 51

1991-ci il 5 fevral. Azərbaycan SSR Ali Sovetinin XII çağırış birinci sessiyasında çıxışı .......... 51

1991-ci il 19 iyul. Kommunist Partiyasının sıralarını tərk etməsi .......... 52

1991-cı il 30 avqust. "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə ilə bağlı çıxışı .......... 53

1991-ci il 3 sentyabr. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi .......... 54

1991-ci il 16 dekabr. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi .......... 55

1992-ci il 22-24 mart. Türkiyə Respublikasına səfər .......... 56

1992-ci il 28 aprel. Yaş senzinin ləğvi tələbi ilə aksiyaların başlanması .......... 56

1992-ci il 15 may. Hakimiyyət çevrilişi cəhdi ilə əlaqədar xalqa müraciət .......... 57

1992-ci il 28 may. "Ümid" körpüsünün açılışı .......... 57

1992-ci il avqust-sentyabr-oktyabr. Azərbaycan Xalq Cəbhəsinin çevriliş cəhdi .......... 58

1992-ci il 16 oktyabr. "91-lər"in müraciəti .......... 59

1992-ci il 21 noyabr. Yeni Azərbaycan Partiyasının təsis qurultayı .......... 60

**IV Fəsil**

**HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCANA RƏHBƏRLİYİ DÖVRÜ (1993–2003) .......... 61**

1993 cü il 15 iyun. Azərbaycanın milli qurtuluş tarixi .......... 63

1993-cü il. BMT Təhlükəsizlik Şurasının 853, 874, 884 saylı qətnamələrinin qəbulu .......... 64

1993-cü il 3 oktyabr. Azərbaycan Respublikasının Prezidenti seçilməsi ........ 65
1993-cü il 24 noyabr. Çörək qıtlığı ilə bağlı fövqəladə müşavirə ...... 66
1993-cü il 19-22 dekabr. Azərbaycan Prezidenti vəzifəsində ilk rəsmi səfəri ........ 67
1994-cü il 5 yanvar. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi ........ 67
1994-cü il 8-11 fevral. Türkiyə Respublikasına ilk rəsmi səfəri ........ 68
1994-cü il 8 may. "Bişkek protokolu"nun imzalanması ........ 69
1994-cü il 20 sentyabr. "Əsrin müqaviləsi"nin imzalanması ........ 70
1994-cü il 26 sentyabr. Azərbaycan və ABŞ prezidentlərinin ilk görüşü ........ 71
1994-cü il 29 sentyabr. BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı ........ 71
1994-cü il 30 sentyabr. Afiyəddin Cəlilov və Şəmsi Rəhimovun qətli ilə əlaqədar bəyanatı ........ 72
1994-cü il 4 oktyabr. Dövlət çevrilişinə cəhd ........ 72
1994-cü il 18-19 oktyabr. Türk dövlətləri başçılarının II zirvə toplantısı ........ 74
1994-cü il 29 oktyabr. BMT baş katibinin Azərbaycana ilk səfəri ..... 74
1995-ci il mart. Respublikada növbəti dövlət çevrilişi cəhdi ........ 75
1995-ci il. Azərbaycan Prezidentinə qarşı sui-qəsd cəhdləri ........ 76
1995-ci il 29 sentyabr. "Azərbaycan Respublikasında 1995–1998-ci il illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın təsdiqi ........ 77
1995-ci il 12 noyabr. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu və ilk parlament seçkiləri ........ 78
1996-cı il 2 fevral. Azərbaycan Respublikası Gənclərinin I forumu ... 79
1996-cı il 6 iyul. Bakı Televiziya qülləsinin tikintisi ........ 79
1996-cı il 16 iyul. "Torpaq islahatı haqqında" qanunun qəbulu ...... 80
1996-cı il 2-4 dekabr. ATƏT-in Lissabon sammiti ........ 81
1997-ci il 20 aprel. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi ........ 82
1997-ci il 12 noyabr. "Çıraq-1" platformasında ilkin neftin hasilatı ........ 82
1998-ci il 10 fevral. Azərbaycanda ölüm hökmünün ləğvi ........ 83
1998-ci il 6 avqust. Mətbuat üzərində senzuranın ləğvi ........ 84

1998-ci il 10 oktyabr. Bakıda Şəhidlər xiyabanında "Əbədi məşəl" abidəsinin açılışı . . . . . 84
1998-ci il 11 oktyabr. İkinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi . . . . . 85
1998-ci il 29 oktyabr. Ankara Bəyannaməsinin imzalanması . . . . . 86
1999-cu il 17 aprel. Bakı–Supsa İxrac Boru Kəmərinin açılışı . . . . . 86
1999-cu il 12 iyul. "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimi . . . . . 87
1999-cu il 21-23 avqust. Cenevrə danışıqları . . . . . 88
1999-cu il 18-19 noyabr. ATƏT-in İstanbul Zirvə görüşü . . . . . 89
2000-ci il 8-9 aprel. Türkdilli ölkələrin dövlət başçılarının VI zirvə görüşü . . . . . 90
2000-ci il 4-12 sentyabr. Minilliyin Zirvə görüşü . . . . . 91
2000-ci il 17 oktyabr. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri haqqında sazişlərin imzalanması . . . . . 92
2001-ci il 23-27 yanvar. Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması . . . . . 93
2001-ci il 23-24 fevral. Milli Məclisdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi . . . . . 94
2001-ci il 3-6 aprel. Ki-Uest danışıqları . . . . . 95
2001-ci il 1 avqust. Latın qrafikalı əlifbaya keçid . . . . . 96
2001-ci il 9-10 noyabr. Dünya Azərbaycanlılarının I Qurultayı . . . . . 96
2002-ci il 22-23 may. Roma Papasının Azərbaycana ilk rəsmi səfəri . . . . . 97
2002-ci il 24 avqust. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər haqqında referendum . . . . . 98
2002-ci il 18 sentyabr. Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin təməlinin qoyulması . . . . . 99
2003-cü il 1 oktyabr. Azərbaycan xalqına müraciəti . . . . . 100

**AZƏRBAYCAN XALQINA MÜRACİƏT . . . . . 101**
**İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR . . . . . 104**

**HEYDƏR ƏLİYEV.**
**100 FAKTIN TARİXİ**

Bakı – 2023

Çapa imzalanmışdır: 20.12.2023
Format: 70x100 / 16
Fiziki çap vərəqi: 5,125
Sifariş: 3406
Tiraj: 500

"Azərbaycan Nəşriyyatı" MMC-də tərtib edilmiş
və nəşriyyatın mətbəəsində çap olunmuşdur.
AZ1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.
Telefon: (+994 12) 538 00 10; Faks: (+994 12) 538 00 55
E-mail: info@neshriyyat.gov.az